Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 190 (8213) ŞƏNBƏ, 31 avqust 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






# 4,2 milyon vətəndaş, 5,3 milyard manat vəsait

## Əhalinin bütün qruplarının rifahının yüksəldilməsi Prezident İlham Əliyevin sosial siyasətinin əsas leytmotividir

**Hər bir ölkənin ümumi inkişafı o ölkənin əhalisinin rifahı, vətəndaşının firavanlığı naminə aparılan siyasətdə öz təcəssümünü tapır. Azərbaycanda da dövlətin prioritet istiqamət olaraq qəbul etdiyi sosialyönümlü siyasət əhalinin maddi rifahının yaxşılaşdırılmasına və sosial müdafiəsinin gücləndirilməsinə xidmət edir.**

2019-cu il isə sosial sahədə inqilabi islahatlar ilinə çevrilib desək yanılmarıq. Belə ki, Prezident İlham Əliyevin bu il təqdim etdiyi iki sosial paket ölkədə minimum əməkhaqqının iki dəfəyə yaxın artırılaraq, 130 manatdan 250 manata, minimum pensiyanın 72,4 faiz artırılaraq 116 manatdan 200 manata çatdırılmasına, sosial müavinət və təqaüdlərin orta hesabla 100 faiz artırılmasına imkan verib. Bundan başqa, dövlət sektorunda işləyənlərin əməkhaqları, məcburi köçkünlərin, tələbələrin təqaüdləri əhəmiyyətli şəkildə artırılıb. 800 min vətəndaşın problemli kreditlərlə bağlı narahatlığına son qoyulmaqla bu problemin həlli ilə bağlı maliyyə yükünü dövlət öz üzərinə götürüb.

Bunu şərtləndirən amillərə nəzər yetirsək görərik ki, cənab İlham Əliyevin fevral ayında imzaladığı 8 sərəncam, 3 fərman ölkə əhalisinin sosial rifah halının yaxşılaşdırılmasına, aztəminatlı ailələrin, qaçqın və məcburi köçkünlərin, müharibə veteranlarının, şəhid ailələrinin, ali, orta ixtisas və peşə təhsili müəssisələrinin tələbələrinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət etdi.

İmzalanan fərmanlara əsasən aprel ayının 1-dən 14 kateqoriya üzrə sosial müavinətlər və 7 kateqoriya üzrə Prezident təqaüdləri orta hesabla 100 faiz artırıldı. İlk olaraq dövlət başçısı fevralın 8-də əhalinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən "Minimum aylıq əməkhaqqının artırılması haqqında" sərəncam imzaladı. Bu sənədə əsasən bu il martın 1-dən minimum əməkhaqqı 38,5 faiz (50 manat) artırılaraq 130 manatdan 180 manata yüksəldildi. Bu da dövlət büdcəsindən maliyyələşən təşkilatlarda və özəl sektorda işləyən 600 min işçinin əməkhaqqının artması deməkdir. Onlardan dövlət sektorunda işləyən 450 min nəfərin əməkhaqqında 30 faiz, özəl sektorda işləyən 150 min nəfərin əməkhaqqında isə 25 faiz artım özünü göstərdi.

Bu da onu təsdiq edir ki, əhalinin bütün qruplarının rifahının yüksəldilməsi həyata keçirilən sosial siyasətin əsas leytmotividir.

Minimum əməkhaqqının artırılması ilə bağlı dövlət büdcəsindən illik 400 milyon manat, 2019-cu il üzrə isə (10 ay ərzində) 335 milyon manata qədər əlavə vəsait yönəldildi. Özəl sektorda əməkhaqqı artımı ən çox avtomobillərin təmir servis xidmətləri, xırda çörəkbişirmə sexləri, hüquqi şəxs statusunda olan ticarət, ictimai-iaşə sahələrində çalışan işçilərə aiddir. Orta hesabla ölkəmizdə muzdla çalışan ümumi işçilərin 40 faizinin, büdcədən maliyyələşən sahələrdə isə 55 faizinin əməkhaqları artırıldı.

Prezidentin birinci paketi 3 milyon vətəndaşın maaş, pensiya, sosial müavinətlərinin artırılmasını təmin etdi və mühüm sosial məsələlərin həllinə 1,6 milyard manat yönləndirildi.

Ümumiyyətlə, vətəndaşların əmək hüquqlarının qorunması, işçilərin maddi-sosial tələbatlarının ödənilməsi, layiqli həyat səviyyələrinin təmin edilməsi aparılan uğurlu sosial-iqtisadi siyasətin əsas istiqamətlərindəndir. 2003-cü ildən bugünədək orta aylıq əməkhaqlarının 7,5 dəfə, pensiyaların 10 dəfədən çox, həssas qruplara yönələn müavinət və təqaüdlərin dəfələrlə artırılması, yoxsulluğun 5 faizə enməsi də təsdiqləyir ki, cənab İlham Əliyevin siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır.

Sosial-iqtisadi sahə ilə bağlı iyulun 31-də keçirilən müşavirədə bu məsələlərə toxunan Prezident İlham Əliyev vurğulayıb ki, dövlət əlavə gəlirlərin demək olar tam həcmini sosial sahəyə yönəldir. Çünki sosial sahə prioritet sahədir və hər zaman bu sahə diqqət mərkəzində olub, bu gün də belədir: "Azərbaycan vətəndaşlarının rifahı, onların yaşayış səviyyəsi daim diqqət mərkəzindədir və imkan daxilində biz bu məsələləri həll edirik. Onu da bildirməliyəm ki, bu sosial paketin həyata keçirilməsi üçün çox böyük maliyyə vəsaiti tələb olunur. Biz buraya təxminən 2 dəfə artımın olduğu sosial müavinətləri də əlavə edə bilərik. Məcburi köçkünlərə verilən müavinət 50 faiz artmışdır, problemli kreditlərlə bağlı olan məsələ öz həllini tapmışdır, digər sosial təşəbbüslər irəli sürülmüşdür və bu, bir daha onu göstərir ki, bizim siyasətimiz sosialyönümlü siyasətdir".

Bir tərəfdən düşünülmüş və ardıcıl olaraq həyata keçirilən islahatların nəticəsi, digər tərəfdən isə cənab İlham Əliyevin cəsarətli, inamlı addımları ölkə vətəndaşlarının xoş gələcəyinə hesablanmış siyasətin təzahürüdür. Hələ 2018-ci ilin sonlarında qarşıdan gələn dövrdə əhalinin sosial durumunun daha da yüksəldilməsinin prioritet təşkil edəcəyini bəyan edən ölkə rəhbəri hər zamankı kimi sözünə, əməlinə sadiqliyini nümayiş etdirdi.

İkinci paketin icrası isə sentyabrın 1-dən başlayır. Belə ki, minimal əmək haqqı 250 manata çatdırılır, əlavə olaraq 400 min nəfərin maaşı 20-50 faiz artırılır. Bununla da cari ildə reallaşan iki sosial paket nəticəsində Azərbaycanda minimum əməkhaqqının məbləği 93 faiz artırılmış olacaq. Bununla ölkəmizdə ilk dəfə olaraq minimum əməkhaqqının məbləği yaşayış minimumunu (180 manat) üstələyəcək.

Ardı 3-cü səh.

## Malayziyanın XVI Ali Başçısı Əlahəzrət əl-Sultan Abdullah Riayatuddin əl-Mustafa Billah Şah ibni Sultan Hacı Əhməd Şah əl-Mustain Billaha

Əlahəzrət!

Malayziyanın milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Malayziya arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Malayziya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 avqust 2019-cu il*

## Qırğız Respublikasının Prezidenti zati-aliləri cənab Sooronbay Jeenbekova

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Qırğızıstan arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın iradəsinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, qardaş Qırğızıstan xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 avqust 2019-cu il*



## Qazax tütünçüləri bu il rekord göstəriciyə nail olacaqlar

Ölkədə qeyri-neft sektorunun, xüsusilə kənd təsərrüfatının inkişafı, əhalinin məşğulluğunun təmin olunması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində Qazax rayonunda iqtisadi cəhətdən sərfəli olan tütünçülüyə diqqət və maraq xeyli artmışdır. Artıq dördüncü ildir ki, rayonda tütün becərilir.

2016-cı ildə rayon üzrə cəmi 10 hektarda tütün əkilmişdisə, 2017-ci ildə bu rəqəm 50 hektara çatdırılmışdır. Aqrotexniki tədbirləri vaxtında həyata keçirən təsərrüfat sahibləri elə həmin il sahələrdən 80 tondan çox məhsul götürmüşlər. 2018-ci ildə məhsuldarlığı daha da artıran tütünçülər əkin sahələrini daha 10 hektar genişləndirərək 60 hektara çatdırmışlar. Keçən il sahələrdən toplanmış 98 tona yaxın qurudulmuş tütün "İlham-M" MMC-yə təhvil verilmişdir.

Tütünçülüyün inkişafı rayonda yeni iş yerlərinin açılması baxımından da böyük əhəmiyyət kəsb edir. Məhz buna görə də tütün əkən kəndlərin sayı ildən-ilə artır.

Ardı 3-cü səh.

## Beynəlxalq forumlara evsahibliyi etmək ölkəmizin nüfuzunu artırır

### Bu forumlarda dünyanı narahat edən problemlərin həlli yolları müzakirə olunur

**Çoxmədəniyyətli cəmiyyətin nümunəsi sayılan Azərbaycan eyni zamanda müstəqil dövlət olaraq hazırda səmərəli təşəbbüslərlə yerləşdiyi regionda və dünyada gedən proseslərə özünün müsbət təsirini göstərməkdədir. Heç də təsadüfi deyil ki, dövlət başçısı İlham Əliyev tərəfindən irəli sürülmüş təşəbbüslər daim yeni imkanlar yaradır.**

Bu gün dünyada gedən proseslər, əksər hallarda narahatedici situasiyalar tələb edir ki, humanitar sahəyə daha böyük diqqət ayrılsın. Dünyanın əksər ölkələrini eyni məqsəd uğrunda bir araya toplayan beynəlxalq tədbirlər bu baxımdan aktuallığı ilə seçilir və bəşəri əhəmiyyət daşıyır. Paytaxt Bakının belə beynəlxalq tədbirlərə evsahibliyi isə, təbii ki, təsadüfi deyil. Onların sırasına daxil olan beynəlxalq humanitar forumların altıncısı Azərbaycan paytaxtında keçirilib.

"Mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında zəngin əməkdaşlıq ənənələri olan Azərbaycan bu formatda tədbirlərin keçirilməsi üçün ideal yerdir". Bu fikirlər "XXI əsr: ümid və çağırışlar" adlı I Bakı Beynəlxalq Humanitar Forumunda səsləndirilib.

Dünyanın nəzər-diqqəti Azərbaycana bu gün də yönəlməkdədir. Əlbəttə, bu, ölkəmizin hərtərəfli inkişafının təsdiqi ilə yanaşı, illərlə öz həllini gözləyən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq norma və prinsiplər əsasında nizamlanması baxımından təbliğatın müəyyən forması kimi də vacib məsələlərdəndir.

"Bakıda keçirilən 5-ci Dünya Mədəniyyətlərarası Dialoq Forumu bizim üçün önəmlidir. Biz birinci paneldə daha konstruktiv dünyanın qurulması üçün nələr etmək lazım olduğunu müzakirə edəcəyik. Əks halda dünyamızı müharibələr bürüyəcək". Bunu Bakıda keçirilən 5-ci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində beynəlxalq ekspert qrupunun rəhbəri, Böyük Britaniya Koventri Universitetinin professoru Maykl Hardi demişdir: "Eyni zamanda panellərdə miqrasiya məsələləri də müzakirə ediləcək. Çünki miqrasiya məsələləri gündəmdədir. Biz bu sahədə vəziyyəti təkmilləşdirməyə çalışacağıq. Ona görə də Bakı forumu bizim üçün önəmlidir".

Xatırladaq ki, 5-ci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda 100-dən çox ölkənin və 30-dan artıq beynəlxalq təşkilatın yüksəksəviyyəli rəsmiləri iştirak etdi. Tədbirin təşkilatçıları Azərbaycan hökuməti və Mədəniyyət Nazirliyi, tərəfdaşları isə UNESKO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Avropa Şurası və ISESCO idi.

Ardı 4-cü səh.

# Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında siyasi münasibətlər yüksək səviyyədədir



**Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov avqustun 30-da Səudiyyə Ərəbistanının "ACWA POWER" şirkətinin nümayəndələri ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, səmimi qəbula görə Baş Nazirə minnətdarlığını bildirən "ACWA POWER" şirkətinin idarə heyətinin sədri Mohammad Abunayyan bildirib ki, bu il mart ayının 17-də Azərbaycan Respublikası Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanının "ACWA POWER" şirkəti arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb. Memorandum Azərbaycanda bərpa olunan enerji mənbələrindən istifadə sahəsində əməkdaşlığın əsas prinsiplərini müəyyənləşdirir. Mohammad Abunayyan bərpa edilən enerji mənbələrindən istifadə sahəsində ixtisaslaşmış şirkət olaraq enerji və su layihələrini həyata keçirən "ACWA POWER"in fəaliyyəti haqqında ətraflı məlumat verib.

Baş Nazir Novruz Məmmədov görüşdə dost və tərəfdaş ölkələr kimi Səudiyyə Ərəbistanı Krallığı ilə Azərbaycan Respublikası arasında siyasi münasibətlərin yüksək səviyyəsindən məmnunluğunu bildirərək deyib: "Xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında dostluq və tərəfdaşlıq əlaqələrinin inkişafına mühüm əhəmiyyət verib. Bu siyasət hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir". Baş Nazir vurğulayıb ki, alternativ enerji ölkəmiz üçün prioritet istiqamətlərdən biridir. Azərbaycan zəngin bərpa olunan enerji mənbələrindən səmərəli istifadəni təmin etməkdə, elektrik enerjisi istehsalı sahəsində beynəlxalq şirkətlərlə əməkdaşlıqda maraqlıdır.

# Qafqaz Müsəlmanları İdarəsinin sədri Səudiyyə Ərəbistanında səfərdədir

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Səudiyyə Ərəbistanına səfəri zamanı rəsmi görüşlər keçirməklə yanaşı, bir sıra əhəmiyyətli yerləri də ziyarət edib.



QMİ-nin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Məkkə şəhərində ziyarət olunan muzeydə müsəlman dünyası üçün müqəddəs sayılan tarixi əşyalar qorunur.

Daha sonra Şeyxülislam Məkkənin məşhur astrofizika rəsədxanasında Ayı, ulduzları, planetləri öyrənən son model cihazlarla və astrofizik muzeylə tanış olub.

Səudiyyə Ərəbistanının dövlət KİV-i Şeyxülislam Allahşükür Paşazadənin səfərini işıqlandıraraq bu cür əhəmiyyətli səfərin ölkələrimiz arasında münasibətlərin inkişafına və müsəlman dünyasına böyük töhfələr verdiyini bildirib. Ziyarət zamanı Kral sarayının müşaviri, Səudiyyə Ərəbistanının Böyük Alimlər Şurasının üzvü Şeyx Səd Nasir əş-Şisri Şeyxülislam Allahşükür Paşazadəni müşayiət edib.

# Növbəti qrup Azərbaycana gəlib

"TurAz Qartalı - 2019" birgə taktiki-uçuş təlimlərində iştirak etmək üçün Türkiyə heyətinin növbəti qrupu Azərbaycana gəlib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sentyabrın 2-dən 16-dək keçiriləcək təlimlərdə "MiQ-29", "F-16", "Su-25", P-235 "Kasa" təyyarələri, "Mi-35", "Mi-17, "Sikorski" UH-70, CH-47 "Çinok" və ATAK/AH-1W helikopterlərindən ibarət 30-dək aviasiya vasitəsi iştirak edəcək.

# Hərb Oyunları Mərkəzində kompüter dəstəkli komanda-qərargah təlimi başlayıb

Müdafiə nazirinin təsdiq etdiyi 2019-cu tədris ilinin hazırlıq planına əsasən, Silahlı Qüvvələrin Hərb Oyunları Mərkəzində kompüter dəstəkli komanda-qərargah təlimi başlayıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimdə əsas məqsəd komandirlərin və qərargah zabitlərinin döyüşün təşkili və aparılması zamanı yaranmış müxtəlif şəraitdə mövcud qüvvələrin və ehtiyatların tətbiqi üzrə praktiki vərdişlərinin təkmilləşdirilməsidir.

Təlimə cəlb olunan heyət simulyasiya sistemləri vasitəsilə döyüş fəaliyyətləri zamanı bölmələrin fasiləsiz, bacarıqla və qətiyyətlə idarə edilməsi üzrə tapşırıqları icra edirlər.

# Sərhəd döyüş məntəqəmiz düşmən tərəfindən snayper atəşinə tutulub

Azərbaycan-Ermənistan dövlət sərhədində təmas xəttində yerləşən Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının "Qazax" əlahiddə sərhəd diviziyasının sərhəd döyüş mövqelərinə qarşı düşmən tərəfinin təxribatları davam edir.






DSX-nin mətbuat mərkəzindən bildiriblər ki, avqustun 29-da saat 18:30-da Ermənistan silahlı qüvvələrinin Noyemberyan rayonunun Şavarşavan kəndi yaxınlığındakı döyüş mövqeyindən Qazax rayonunun Fərəhli kəndi istiqamətindəki sərhəd döyüş məntəqəmiz snayper atəşinə tutulub. Nəticədə arxa istiqamətdə təminat yolunda hərəkət edən hərbi yük nəqliyyat vasitəsi atəşə məruz qalıb. Hərbi qulluqçular arasında xəsarət alma halı olmayıb.

Düşmən snayperlərinin atəş nöqtələri cavab atəşi ilə susdurulub.

***"Azərbaycan"***

# Silahlı Qüvvələrin Hərb Oyunları Mərkəzində əməliyyat toplanışı

Müdafiə nazirinin təsdiq etdiyi 2019-cu tədris ilinin hazırlıq planına əsasən, Silahlı Qüvvələrin Hərb Oyunları Mərkəzində Azərbaycan Ordusunun qoşun növləri və birliklərinin qərargah rəisləri, həmçinin Müdafiə Nazirliyinin baş idarə və xüsusi təyinatlı təhsil müəssisələri rəislərinin müavinlərinin iştirakı ilə əməliyyat toplanışı keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, toplanışın keçirilməsində məqsəd əməliyyatlara hazırlıq zamanı qərargahların işinin təşkili və döyüş fəaliyyətlərinin hərtərəfli təminatının planlaşdırılması, qoşun növləri arasında qarşılıqlı fəaliyyətin gücləndirilməsi, eləcə də qərargahlarda döyüş sənədlərinin müvafiq tələblərə uyğun işlənilməsi, o cümlədən hərb sənəti və qoşunların idarə edilməsi üzrə bilik və bacarıqların təkmilləşdirilməsi olub.

# Qayğıya ehtiyacı olan insanlara dövlətimiz lazımi diqqəti göstərir

Avqustun 30-da Yeni Azərbaycan Partiyasının İcra Katibliyində partiyanın Səbail və Xətai rayon təşkilatlarının ərazi ilk partiya təşkilatları sədrlərinin iştirakı ilə müşavirə keçirilib.





AZƏRTAC xəbər verir ki, müşavirədə çıxış edən Azərbaycan Respublikası Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycanın ötən illər ərzində böyük inkişaf yolu keçdiyini diqqətə çatdırıb. Əli Əhmədov bildirib ki, son illər Azərbaycan iqtisadiyyatı bir neçə dəfə artıb. Təbii ki, iqtisadiyyatın inkişafı dövlətin sosial siyasətinin daha da güclənməsinə zəmin yaradır. Bu mənada, əhalinin rifah halının yüksəlməsi istiqamətində atılan addımlar bunun əyani göstəricisidir.

Bu ilin əvvəlindən Prezident İlham Əliyevin müvafiq fərman və sərəncamları ilə ölkəmizdə əməkhaqlarının, təqaüdlərin, sosial müavinətlərin və digər sosial ödənişlərin əhəmiyyətli dərəcədə artırıldığını deyən Baş Nazirin müavini qeyd edib ki, ölkəmizdə qayğıya ehtiyacı olan insanlara dövlətimiz lazımi diqqəti göstərir. Hər bir ailə bu artımlardan faydalanır. Azərbaycan dövləti gücləndikcə əhalinin rifah halının daha da yüksəldilməsi istiqamətində növbəti addımlar atılacaq.

YAP sədrinin müavini bildirib ki, Azərbaycanın bu uğurları qazanmasının əsasında dayanan amillərdən biri də sabitlikdir. Çünki sabitlik olmadan heç bir inkişafdan, əmin-amanlıqdan söhbət gedə bilməz. Ona görə də hər bir dövlət və xalq üçün sabitlik ən mühüm şərtlərdən biridir.

Azərbaycanın beynəlxalq miqyasda da nüfuzunun davamlı olaraq artdığını deyən Baş Nazirin müavini ölkəmizin dünyada və regionda baş verən proseslərdə fəal mövqe nümayiş etdirdiyini söyləyib. Bununla belə Azərbaycanın inkişafını və güclənməsini istəməyən qüvvələrin olduğunu deyən YAP sədrinin müavini həmin dairələrin müxtəlif vasitələrlə ölkəmizə qarşı qarayaxma kampaniyası apardıqlarını qeyd edib. Bu vasitələrin biri də sosial şəbəkələrdir. Belə kampaniya aparanlar cəmiyyətimizdə ifşa olunmalıdır. Ona görə də YAP-ın üzvləri Azərbaycanın qazandığı nailiyyətləri insanlar arasında geniş təbliğ etmək işini fəal şəkildə davam etdirməlidir. O cümlədən ölkəmizə qarşı qarayaxma kampaniyası aparan dairələrin, radikal müxalifətin əsl niyyətləri ifşa olunmalıdır.

Əli Əhmədov həmçinin bu il ölkəmizdə bələdiyyə seçkilərinin keçiriləcəyini deyib və YAP-ın bu seçkilərə hazırlığı məsələləri haqqında fikirlərini bildirib. O, Yeni Azərbaycan Partiyasının böyük resurslarının və seçki təcrübəsinin olduğunu deyərək bu seçkilərdə də uğur qazanılacağına əminliyini ifadə edib.

Müşavirədə qarşıda duran vəzifələrlə əlaqədar ilk partiya təşkilatı sədrlərinə tövsiyə və tapşırıqlar verilib.

# Ölkəmizdəki mövcud dini duruma həsr olunmuş müşavirə keçirilib

Avqustun 30-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfovun iştirakı ilə ölkədəki mövcud dini duruma həsr olunmuş müşavirə keçirilib.



Dövlət Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, müşavirəni açan DQİDK sədri Mübariz Qurbanlı respublikada dövlət səviyyəsində milli-mənəvi dəyərlərimizin qorunması, din siyasətinin həyata keçirilməsi, dövlət-din münasibətlərinin formalaşması və inkişafı istiqamətində görülən işlər, mövcud dini durum, eyni zamanda müzakirə olunacaq məsələlər barədə ətraflı məlumat verib.

Sentyabrın 1-nə təsadüf edən Məhərrəm ayında bütün mərasimlərin qanunvericilik çərçivəsində təşkilinə, Azərbaycan xalqının, islam dininin yüksək mədəni normalarına uyğun keçirilməsinin vacibliyinə də toxunan komitə sədri bu istiqamətdə Qafqaz Müsəlmanları İdarəsi (QMİ) ilə birlikdə əvvəlcədən maarifləndirmə məqsədilə hazırlıq işlərinin həyata keçirildiyini, komitə tərəfindən tədbirlər planının hazırlandığını bildirib. Müvafiq tədbirlər planına əsasən, Bakı şəhəri də daxil olmaqla, respublikanın müxtəlif bölgələrində maarifləndirici tədbirlərin, görüşlərin keçirildiyini nəzərə çatdıran Mübariz Qurbanlı qeyd edib ki, əsas məqsəd bu mərasimlərin bütün məscidlərdə qanunun tələblərinə və QMİ-nin fətvasına uyğun şəkildə yerinə yetirilməsidir.

Daha sonra DQİDK-nın bölgə şöbə müdirləri regionlardakı dini durum, din adı altında qanunvericiliyə və milli maraqlara zidd təbliğatın aparılmasının qarşısının alınması istiqamətində aidiyyəti qurumlarla birgə görülmüş profilaktik işlər, o cümlədən təziyə məclislərinin məscidlərdə, ibadət ocaqlarında və onlara aid ərazilərdə təşkil olunması, islam qaydalarına uyğun formada həyata keçirilməsi ilə bağlı atılan qabaqlayıcı addımlar barədə danışıblar.

Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov dini mərasimlərin mahiyyətinə uyğun, xurafat elementlərindən uzaq təşkil edilməsinin vacibliyinə diqqət çəkib. Şöbə müdiri Məhərrəm ayı zamanı Qafqaz Müsəlmanları İdarəsinin təşəbbüsü ilə talassemiya və hemofiliya xəstələri üçün keçirilən ənənəvi qanvermə aksiyasının xüsusi önəm daşıdığını vurğulayıb. E.Nəcəfov təziyə mərasimlərində Kərbəla şəhidləri ilə yanaşı, Qarabağ müharibəsi zamanı şəhid olan soydaşlarımızın da xatirəsinin anılmasının zəruriliyini qeyd edib.

Sonda müzakirə olunan məsələlərlə bağlı şöbə müdirlərinə müvafiq tapşırıq və tövsiyələr verilib.

# Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu davam etdirir

Prezident İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin həllinə kömək göstərirlər.

Növbəti belə qəbul avqustun 30-da Oğuz Mərkəzi Rayon Xəstəxanasında Səhiyyə naziri Oqtay Şirəliyev tərəfindən keçirilib.

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, qəbul zamanı nazir Oqtay Şirəliyev Oğuz və Qəbələdən olan vətəndaşların sağlamlıq problemləri, işlə təminat və s. məsələlərlə bağlı müraciətlərini dinləyib.

Vətəndaş müraciətlərində qaldırılan məsələlər nazirliyin müvafiq qurumlarının əməkdaşlarının iştirakı ilə araşdırılıb. Müraciətlərin bəziləri yerindəcə həllini tapıb. Nazirliyin səlahiyyətlərinə aid olmayan məsələlər aidiyyəti üzrə çatdırılması üçün qeydiyyata alınaraq nəzarətə götürülüb.

* * *

Avqustun 30-da Energetika naziri Pərviz Şahbazov Gəncə şəhərində Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Gəncə filialının inzibati binasında vətəndaş qəbulu keçirib.

Nazirlikdən bildirilib ki, həmin gün Energetika nazirinin müavini Samir Vəliyev də Goranboy şəhərində vətəndaşları qəbul edib. Vətəndaşların müraciətləri elektrik enerjisi təchizatı, elektrik xətlərinin və transformatorların yenilənməsi, elektrik dirəklərinin yerinin dəyişdirilməsi, elektrik enerjisi verilişindəki fasilələr, elektrik enerjisi və qaza görə yaranan borc və cərimələr, qaz təchizatı, qaz sayğacının quraşdırılması, işlə təminat və digər məsələləri əhatə edib.

Vətəndaş qəbulu zamanı Mingəçevir şəhəri və Samux rayonundan qəbula gələn vətəndaşların da müraciətləri dinlənilib, operativ həlli üçün lazımi tədbirlər görülüb.

Ümumilikdə qəbullarda 40-a yaxın vətəndaşın müraciətinə baxılıb.

* * *

Avqustun 30-da Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev Lənkəran şəhərində yerləşən Heydər Əliyev Mərkəzində Lənkəran, Lerik, Masallı, Yardımlı və Astara rayonlarının sakinlərini qəbul edib.

Həmin gün Ekologiya və Təbii Sərvətlər nazirinin müavinləri Firdovsi Əliyev Lerik, Rauf Hacıyev isə Masallı rayonlarından olan vətəndaşlarla görüşüblər.

Qəbullar zamanı ətraf mühitin və ekoloji tarazlığın mühafizəsi, meşələrin qorunması, biomüxtəliflik, hidrometeorologiya, ətraf mühitin monitorinqi və digər məsələlərlə bağlı vətəndaşların müraciət və təklifləri dinlənilib. Qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, digərləri üzrə nazirliyin aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

* * *

Avqustun 30-da Dövlət Gömrük Komitəsinin rəhbərliyi Masallı, Lənkəran, Yardımlı və Lerik rayonlarının sakinlərini, eləcə də bu bölgələrdə məskunlaşan məcburi köçkünləri qəbul edib.

Həmin gün Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Masallı şəhərində Masallı və Lənkəran rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbulda vətəndaşların yalnız gömrük məsələləri ilə bağlı müraciətləri dinlənilib. Müraciətlər əsasən idxal-ixrac əməliyyatları zamanı rəsmiləşdirmə, gömrük orqanlarında işə qəbul və digər gömrük məsələləri ilə bağlı olub.

Həmin gün Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-mayoru İsmayıl Hüseynov Yardımlı, komitə sədrinin müavini, gömrük xidməti general-leytenantı Əsgər Abdullayev isə Lerik şəhərində vətəndaşları qəbul edib.

Qəbullar zamanı hər bir vətəndaşın müraciəti diqqətlə dinlənilib və qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli barədə müvafiq strukturların rəhbərlərinə tapşırıqlar verilib.

* * *

Avqustun 30-da Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin rəhbərliyi şimal bölgəsindən olan vətəndaşların müraciətlərini dinləyib.

Komitənin sədri Hicran Hüseynova vətəndaşlarla Xızı şəhərindəki Heydər Əliyev Mərkəzində görüşüb. Şabran, Siyəzən və Xızı rayonlarından olan sakinlərin iştirak etdikləri qəbulda sağlamlıq imkanları məhdud uşaqların müalicəsi, erkən nikah və boşanmaların yaratdığı problemlər, imkansız ailələrin müvafiq istiqamətdə təminatı, övladlığa verilmə, uşaq hüquqlarının müdafiəsi, məişət zorakılığına məruz qalma və s. kimi məsələlərlə bağlı müraciətlərə baxılıb.

Həmin gün komitə sədrinin müavini Aynur Sofiyeva Xaçmaz şəhərindəki Heydər Əliyev Mərkəzində bu rayondan, həmçinin Quba və Qusardan olan vətəndaşların müraciətlərini dinləyib.

* * *

Baş Prokurorluğun mətbuat xidmətindən bildiriblər ki, Baş prokuror Zakir Qaralov avqustun 30-da Quba rayon prokurorluğunun inzibati binasında Quba və Qusar rayonlarından olan vətəndaşları qəbul edib.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabeli prokurorların iştirakı ilə keçirilən qəbulda Baş prokuror bölgədə yaşayan 15 vətəndaşın müraciətini dinləyərək, qaldırılan məsələlər üzrə onların qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verib.

Vətəndaşların müraciətlərinin bir qismi yerində həllini tapıb, digər müraciətlər isə araşdırılması üçün nəzarətə götürülüb.

* * *

Avqustun 30-da Ali Məhkəmənin sədri Ramiz Rzayev Xaçmazda, İnzibati-İqtisadi kollegiyanın sədri Hikmət Mirzəyev Qusarda, Cinayət kollegiyasının sədri Şahin Yusifov Qubada vətəndaşların qəbulunu keçiriblər.

Qəbullar zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi yerində öz həllini tapıb. Bəzi müraciətlər üzrə isə Ali Məhkəmənin Aparatının qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib. Müraciətlərin əksəriyyəti məhkəmələrin fəaliyyəti ilə bağlı olub.

* * *

Avqustun 30-da Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə Qusar şəhərindəki Heydər Əliyev Mərkəzində şimal bölgəsindən olan vətəndaşları qəbul edib.

Quba, Qusar, Xaçmaz, Şabran və Siyəzən rayonundan qəbula gələn sakinlərin müraciətləri əsasən ali və orta ixtisas təhsili müəssisələrinə qəbul, ali təhsil müəssisələrinə qəbul olan abituriyentlərin qeydiyyatı, dövlət qulluğuna qəbul, vakant dövlət qulluğu vəzifələri, namizədlərlə müsahibələrin keçirilməsi və s. məsələlərlə bağlı olub. Hər bir vətəndaşın müraciəti diqqətlə dinlənilib. Müraciətlərin əksəriyyəti yerindəcə həllini tapıb. Araşdırılması zəruri olan bəzi məsələlər qeydiyyata alınıb, həlli ilə bağlı müvafiq şəxslərə konkret tapşırıqlar verilib.

DİM-in səlahiyyətlərinə aid olmayan məsələlər isə aidiyyəti qurumlara göndərilmək üçün qeydiyyata götürülüb.

***AZƏRTAC***

# Azərbaycanda üzümçülük yenidən öz inkişaf dövrünü yaşayır







Avqustun 30-da Şamaxı rayonunun Meysəri kəndində I Azərbaycan Üzüm və Şərab Festivalının açılış mərasimi olub.

Festival Heydər Əliyev Fondunun dəstəyi, Kənd Təsərrüfatı Nazirliyi, Şamaxı Rayon İcra Hakimiyyəti, "Regional İnkişaf" İctimai Birliyi, Dövlət Turizm Agentliyi və Azərbaycan Milli Xalça Muzeyinin birgə təşkilatçılığı ilə keçirilir. Layihənin məqsədi yerli üzüm və şərab istehsalının təşviqi, şərab məhsullarının ixrac potensialının artırılması, Azərbaycanda şərab istehsalı tarixinin geniş ictimaiyyətə çatdırılmasıdır.

AZƏRTAC xəbər verir ki, qonaqları şərabçılıqla bağlı al-əlvan geyimli müxtəlif personajlar qarşılayıblar.

"Şirvan şərabları" MMC-nin üzümçülük və şərabçılıq kompleksi ərazisində təşkil olunan festivalın açılış mərasimində çıxış edən Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov Şamaxının hələ qədimdən poeziyanın, musiqinin vətəni olmaqla yanaşı, həm də üzümçülüyün inkişaf etdiyi bölgələrimizdən biri kimi tanındığını diqqətə çatdırıb. Qeyd edib ki, bu ənənəni uzun illərdir qoruyub saxlayan Şamaxıda həm iri müəssisələr, həm də kiçik ailə təsərrüfatları yaradılmaqdadır.



Şamaxıda üzümçülüyün inkişafının Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu deyən T.Məmmədov bildirib ki, ötən əsrin 70-80-ci illərində rayonda 37 min hektar üzüm bağı var idi. Məhsuldarlıq ildə 240 min tondan çox idi. Müstəqilliyimizin ilk illərində bu sahə diqqətdən kənarda qaldı, üzüm bağlarının əksəriyyəti məhv oldu. Amma bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə üzümçülüyün inkişafı yenidən dövlət səviyyəsində dəstəklənir. Hazırda rayonda yeni salınan üzüm bağlarının ərazisi 1,7 min hektara çatır.

Heydər Əliyev Fondunun dəstəyi ilə keçirilən bu möhtəşəm festivala görə fonda minnətdarlığını bildirən icra hakimiyyətinin başçısı deyib ki, iştirakçılar festivalda ölkəmizin müxtəlif bölgələrini təmsil edən şərab istehsalçılarının məhsulları ilə tanış ola biləcəklər.

Rayonda baş verən sonuncu zəlzələnin nəticələrinin aradan qaldırılması istiqamətində mühüm işlərin görüldüyünü, yeni evlərin, uşaq bağçalarının, məktəblərin, tibb məntəqələrinin tikildiyini xatırladan icra hakimiyyətinin başçısı Şamaxıya göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya minnətdarlığını bildirib.

Kənd Təsərrüfatı naziri İnam Kərimov çıxış edərək festivalın Şamaxıda keçirilməsinin heç də təsadüfi olmadığını deyib. Nazir qeyd edib ki, Şamaxı Azərbaycanın aparıcı aqrar rayonlarından biri olmaqla yanaşı, həm də ölkə şərabçılığının, üzüm istehsalının paytaxtı kimi tanınır. Bu gün aqrar sektorun inkişafı dövlətin həyata keçirdiyi siyasətin prioritet istiqamətlərindən birini təşkil edir. Bu cür tədbirlərin keçirilməsi aqrar sahəyə göstərilən diqqətdən irəli gəlir. Şamaxı Azərbaycanın üzümçülük sahəsində qədim və zəngin ənənələrə malikdir. Azərbaycanı dünyaya tanıdan üzüm sortları məhz Şamaxıda xalq seleksiya yolu ilə ərsəyə gəlib. Bu tədbirin keçirilməsi təkcə Şamaxı üçün deyil, bütün Azərbaycan üçün böyük əhəmiyyət daşıyır.

Azərbaycanın üzüm istehsalına görə hələ 70-80-ci illərdə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə sovet məkanında birinci və aparıcı respublikalardan biri olduğunu xatırladan nazir deyib: "Azərbaycanın üzüm sortları - Ağ şanı, Qara şanı, Mədrəsə, Meysəri, Təbrizi və digərləri ölkəmizi nəinki sovet məkanında, bütün dünyada şərabçılıq və üzümçülük ölkəsi kimi məşhurlaşdırmışdı. Ancaq təəssüflər olsun ki, müstəqilliyimizin ilk illərində bu sahə tənəzzülə uğradı. Hazırda bu gün Azərbaycanda üzümçülük yenidən öz inkişaf dövrünü yaşayır. Prezident İlham Əliyev tərəfindən bu sahənin inkişafı ilə bağlı mühüm qərarlar, dövlət proqramları qəbul edilib. Aqrar sahənin digər istiqamətləri kimi, şərabçılığa da dövlət dəstəyi göstərilir, subsidiyalar, güzəştli kreditlər verilir. Hesab edirik ki, Azərbaycan bu sahədə ənənələrini qısa müddət ərzində bərpa edəcək və öz şöhrətini dünyaya bir daha tanıdacaq. Əlbəttə, bu cür tədbirlərin keçirilməsi şərabçılıq və üzümçülük sahəsinin inkişafı üçün çox böyük əhəmiyyət kəsb edir. Fürsətdən istifadə edərək buna görə Heydər Əliyev Fonduna, Şamaxı Rayon İcra Hakimiyyətinə, "Regional İnkişaf" İctimai Birliyinə, Dövlət Turizm Agentliyinə və Azərbaycan Milli Xalça Muzeyinə - əməyi keçən bütün təşkilatlara minnətdarlığımı bildirirəm".

Azərbaycan Şərab İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri Elçin Mədətov çıxışına italyan mütəxəssis Pizzi Angelo Antoniodan sitat gətirməklə başlayıb: "Hazırda bütün dünya qəbul edir ki, üzümçülüyün və şərabçılığın vətəni Cənubi Qafqaz, o cümlədən Azərbaycandır. Yəni, biz, üzümün vətənindəyik". O, Şərab İstehsalçıları və İxracatçıları Assosiasiyası adından Prezident İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya belə bir bayrama görə təşəkkürünü bildirərək deyib: "İnanıram ki, bu festival ənənəvi hal alacaq və ilbəil öz əhatə dairəsini daha da genişləndirəcək. Mən festival iştirakçılarına bu iki gün ərzində xoş istirahət və əyləncələr arzu edirəm".

Festivalın açılış mərasimindən sonra təşkil olunan konsertdə tanınmış müğənnilərin, rəqs qruplarının çıxışları tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb. "Natiq" ritm qrupu, "Mirvari" rəqs qrupu, Xalq artistləri Aygün Kazımova və Samir Cəfərovun ifalarında festival üçün hazırlanmış repertuar təqdim olunub.

Sonra şərab sərgisi açılıb. Şərab istehsalçıları öz müəssisələri barədə təqdimatlarla çıxış edib, məhsullarının dequstasiyasını keçiriblər. Şərab istehsalçılarının paradı təşkil olunub. Ərazidə Azərbaycanın kənd təsərrüfatı məhsullarının yarmarkası da təşkil edilib.

Festivalın rəmzləri olan müxtəlif dekorasiyalar və instalyasiyalarla bəzədilən ərazidə yerli şərab istehsalçılarının dequstasiya pavilyonları, həmçinin qastronomik və etno zonalar fəaliyyət göstərir. Burada Azərbaycanın ayrı-ayrı bölgələrinə məxsus xalq sənəti növlərinə - misgərlik, xalçaçılıq, şəbəkə, dulusçuluq kimi müxtəlif sahələrə aid yaradıcılıq nümunələri, onların hazırlanması prosesi, milli mətbəx mədəniyyəti və musiqiləri təqdim edilir. Festivala evsahibliyi edən Şamaxı xüsusi guşə ilə təmsil olunur.

Ərazidəki nəhəng butulkalar yerli şərab istehsalçılarının hər birinin məhsullarını təcəssüm etdirir. Bundan əlavə, şərab şüşəsi tədbirdə həm də yaradıcılıq obyekti kimi istifadə olunur - iştirakçılar butulkaları istədikləri tərzdə və rəngdə boyayır, yaradıcı fantaziyalarını reallaşdırırlar.

Festival çərçivəsində iştirakçılar və şərab istehsalçıları üçün oyun və viktorinalar keçirilir, qaliblərə hədiyyələr təqdim olunur.

Tədbirə ailəvi qatılan iştirakçıların övladları uşaq əyləncə zonasında vaxtlarını maraqlı keçirirlər. Burada onlar mini zooparkda heyvanlarla tanış olur, müxtəlif viktorina və ustad dərslərində iştirak edirlər.

"İnadkarın ram edilməsi" filmindən Adriano Çelentanonun rəqs səhnəsi üzümün ayaqla sıxılmasını - Avropada əvvəllər şərabın hazırlanma prosesini çoxlarının yaddaşına maraqlı və əyləncəli bir məşğuliyyət kimi yazıb. İştirakçılar festivalda bu zövqü də yaşaya biliblər.

Kompleks ərazisindəki göldə işıqların şousu nümayiş olunub, yelkənli qayıqda musiqi nümunələri ifa edilib.

Ərazidə festival günlərindən xatirələri əbədiləşdirmək üçün fotozona da yaradaılıb.

Festival bu gün də davam edəcək.

# 4,2 milyon vətəndaş, 5,3 milyard manat vəsait

*Əvvəli 1-ci səh.*

Yəni minimum səviyyədə olan əməkhaqqı belə yaşayış minimumundan 70 manat və ya 40 faiz çox olacaq. Minimum əməkhaqqının bu artımı 950 min nəfərin maaşlarının artımına səbəb olacaq ki, onlardan da 600 mini dövlət, 350 mini qeyri-dövlət sektorunda çalışanlardır.

750 min pensiyaçıya verilən vəsait isə oktyabrın 1-dən artırılacaq. Prezident İlham Əliyevin bu il də təqdim etdiyi və əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində inqilabi addımların atılmasını təmin edən sosial islahatlar paketində pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi, bu məqsədlə pensiya artımı xüsusi yer tutur. Belə ki, bundan əvvəl minimum pensiya 2019-cu il martın 1-dən 116 manatdan (bir sıra kateqoriyalar üzrə 80 manatdan) 160 manata çatdırılmışdı və həmin artım 233 min vətəndaşı əhatə etmişdi. Yeni qanunla pensiyanın minimum məbləğinin 200 manata çatdırılması isə 660 min nəfər pensiyaçını əhatə edəcək.

Prezident İlham Əliyevin 18 iyun 2019-cu il tarixli sərəncamları ilə dövlət qulluqçuları, hərbi qulluqçular, ədliyyə, hüquq mühafizə, fövqəladə hallar, miqrasiya orqanları əməkdaşları, xüsusi rütbəli şəxslərin əməkhaqları ciddi şəkildə artırılıb ki, bu da qanunvericiliyə əsasən xüsusi şərtlərlə pensiya təyin olunmuş 94 min nəfərin pensiyasının da gələn aydan orta hesabla 31 faiz artmasına səbəb olacaq. Həmin şəxslərin çalışdıqları sahələr üzrə əməkhaqlarının artımı ilə əlaqədar qanunvericiliyə əsasən onların əmək pensiyaları da yenidən hesablanaraq artırılır.

Əlavə olaraq müavinət və təqaüdlərin artırılması sahəsində görülən işlər ümumilikdə 1,3 milyon insanı əhatə edib və bunlardan 300 mindən artığı məhz əlilliyi olan şəxslər, 500 minə qədəri məcburi köçkün, 100 mindən artığı tələbə və gənclərdir.

Göründüyü kimi, bu müavinət və təqaüdlər əhalinin sosial cəhətdən ən həssas təbəqəsini əhatə edir və onların gəlirləri çox əhəmiyyətli şəkildə artırılır.

Onu da əlavə edək ki, dövlət başçısının digər təşəbbüsü sosial sığorta sahəsində böyük irəliləyişi təmin edib. Belə ki, 2006-2018-ci illərdə sığortaya hətta cüzi məbləğ ödəyənlərə belə 25 illik sığorta stajı hesablanb. Bunun nəticəsində yanvar ayının 1-dən etibarən avtomatik pensiya təyinatına başlanılıb. Avtomatik pensiya təyinatı bu gün artıq 13 min insanı əhatə edir. Onlar hər hansı bir ünvana getmədən, hər hansı bir müraciət etmədən pensiya təyinatlarını ən səmərəli və sürətli şəkildə əldə ediblər.

Beləliklə, Prezidentin imzaladığı hər iki sosial paketin ümumi məbləği cari il üçün 2,3 milyard manat, gələn il üçün isə daha 3 milyard manat olmaqla ümumilikdə 4,2 milyon vətəndaşın əhatə edilməsini və 5,3 milyard manatın ayrılmasını nəzərdə tutur.

Əgər nəzərə alsaq ki, ölkə əhalisinin sayı 10 milyon nəfərdir, bunun necə böyük sosial əhəmiyyətə malik olduğunu təsəvvür etmək çətin deyil.

Dövlətlərin demokratiklik əmsalı təkcə sosial-iqtisadi inkişaf göstəriciləri ilə deyil, həm də hakimiyyətin xalqa xidmət səviyyəsi, cəmiyyət qarşısında götürdüyü öhdəliklərə sadiqliyi ilə müəyyənləşir. Xalqın böyük etimad göstərərək mandat verdiyi hakimiyyət fəaliyyəti ilə daim ictimai maraqları doğrultmağa, hər bir vətəndaşın mənafeyinə hesablanan siyasi-hüquqi və sosial-iqtisadi islahatları həyata keçirməklə böyük rəğbət qazanır.

Azərbaycanda sosial sahə üzrə görülən işlər bir tərəfdən dövlətin gücünü, digər tərəfdən isə Prezidentin həyata keçirdiyi siyasətin effektivliyini, reallaşdırılan islahatların yüksək praktiki nəticələr verdiyini göstərir. Ancaq atılan addımlar Prezident İlham Əliyevin çoxşaxəli sosial siyasətinin təzahür formalarının yalnız bir hissəsidir. Görünən odur ki, xalqın rifah halının daha da yaxşılaşdırılması üçün dövlət başçısının böyük sosial islahatlar paketi çərçivəsində hələ çox qərarlar qəbul olunacaq.

**Rəşad BAXŞƏLİYEV,**
**"Azərbaycan"**

# Qazax tütünçüləri bu il rekord göstəriciyə nail olacaqlar

*Əvvəli 1-ci səh.*

Artıq rayonda tütün əkən kəndlərin sırasına Kəmərli, Qaymaqlı, Aslanbəyli, Birinci və İkinci Şıxlı, Yuxarı və Orta Salahlı, Kosalar, Cəfərli, Hüseynbəyli, Çaylı, Daş Salahlı, Dəmirçilər, Alpout, Fərəhli kəndləri də qoşulmuşlar.

Artıq bir aydan çoxdur ki, tütün dərimi davam edir. Ümumilikdə 65 hektarı əhatə edən sahələrdə bol məhsul yetişdirən təsərrüfat sahibləri tütünü vaxtında və itkisiz toplamaq üçün əllərindən gələni əsirgəmirlər. Onlar yığılmış məhsulu qurutmaq üçün talvarlara daşıyır, orada isə kənd sakinlərinin köməyi ilə ipə düzürlər.

Hazırda tütünçülük sahəsində rayon üzrə 300 nəfərədək adam çalışır. Onun 60 nəfəri Kosalar kəndindədir. Kənddə elə sakinlər var ki, onların ailə üzvlərinin hamısı bu sahədə çalışır. Məsələn, Kifayət Əliyeva 3 nəfərlə, Rasim Əliyev isə 2 nəfər ailə üzvü ilə birlikdə işləyir. Hamısı da qazancdan razıdır.

Birinci Şıxlı fermer təsərrüfatının sahələrində də bol tütün yetişdirilmişdir. Kənd sakinləri Maya İbrahimxəlilova, Qənirə Abbasova, Aidə



Bayramova və başqaları tütünün becərilməsindən yığılıb qurudulmasınacan fermer təsərrüfatında çalışırlar. Daş Salahlı kənd sakini Vəli Vəliyev bir neçə ildir ki, pay torpağının 50 sotunda tütün əkir. Deyir ki, çox gəlirli sahədir. Artıq tutunçülüyü dərindən mənimsəyib. Hər il təhvil verdiyi məhsuldan yaxşı qazanc əldə edir.

Məlum olduğu kimi, Qazax rayonu Ermənistanla 168 kilometr həmsərhəddir. Düşmən mütəmadi olaraq kəndləri atəşə tutsa da, kənd sakinləri əkin-biçindən qalmırlar. Sakinlər arasında tütünçülüklə məşğul olanlar da var. Cəfərli kəndinə çatmamış tütün plantasiyaları diqqəti cəlb edir. Hiss edirsən ki, sahələrə yüksək səviyyədə aqrotexniki qulluq göstərilib. Söhbət zamanı kənd sakinləri dedilər ki, düşmənin təxribatı onları qətiyyən qorxutmur. Əkin sahələrini boş qoymurlar. Digər kənd təsərrüfatı məhsulları kimi, tütünçülüyü də inkişaf etdirirlər.

Cəfərli kəndinin sakini Aybəniz Məmmədova da hər il ona məxsus sahədə tütün yetişdirir. Deyir ki, tütünçülükdən gələn gəlir normaldır. Kənd sakinləri - Gülxanım Almazova və Səyyarə İsayeva da tütündən götürdükləri qazancın onları qane etdiyini söylədilər.

**Sabir ƏLİYEV,**
**"Azərbaycan"**

# Şamaxıda I Üzüm və Şərab Festivalı çərçivəsində Azərbaycanda şərab istehsalının inkişafına dair "dəyirmi masa" keçirilib

Avqustun 30-da Şamaxı rayonunun Meysəri kəndində I Azərbaycan Üzüm və Şərab Festivalına start verilib.

AZƏRTAC xəbər verir ki, I Üzüm və Şərab Festivalı çərçivəsində ilk tədbir - "dəyirmi masa" təşkil olunub. "Dəyirmi masa"da yerli şərab istehsalçıları, müvafiq dövlət qurumlarının nümayəndələri və xarici ekspertlər iştirak ediblər.

Tədbirdə ölkədə şərabçılıq sahəsində mövcud olan problemlər, inkişaf istiqamətləri və yerli şərab məhsullarının xarici bazarlara çıxışı mövzuları müzakirə olunub.

"Dəyirmi masa"nın moderatoru, Azərbaycan Şərab İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri Elçin Mədətov Azərbaycanda iqtisadiyyatın səmərəliliyinin artırılması və rəqabət qabiliyyətinin yüksəldilməsi çərçivəsində aqrar sektorda üzümçülüyün, eyni zamanda, şərabçılığın dinamik inkişafının ölkənin əsas prioritetlərindən biri olduğunu bildirib. Qeyd edib ki, bu baxımdan 2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün, eləcə də 2018-2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair dövlət proqramları ölkəmizdə üzümçülüyə və şərabçılığa dair aqrar siyasəti formalaşdıran əsas sənədlər hesab edilir. Hazırda Azərbaycanda şərab və şərabçılıq məhsullarına tələbatın ortamüddətli perspektivdə yerli ehtiyac və ixracat imkanları nəzərə alınmaqla ödənilməsi, şərab istehsalı müəssisələrinin fəaliyyətinin genişləndirilməsi, müasir texnologiyalar əsasında qurulması, xammal təminatının yaxşılaşdırılması, şərabçılıq məhsullarının ixracının artırılması və kənd əhalisinin məşğulluq səviyyəsinin yüksəldilməsi üçün tədbirlər həyata keçirilir.

Elçin Mədətov deyib ki, Azərbaycan böyük şərabçılıq ənənələri olan ölkədir. Bu gün əsas məsələ 70-ci illərdə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə inkişaf etdirilən üzümçülüyün və şərabçılığın əvvəlki şöhrətini özünə qaytarmaqdır. Bunun üçün hər bir üzüm və şərab istehsalçısının üzərinə böyük məsuliyyət düşür.

Onun sözlərinə görə, həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanda şərab və şərabçılıq məhsullarının istehsalı 2018-ci ildə 1,6 milyon dekalitri ötüb. Bunun da 660 min dekalitri ixrac edilib. Hazırda dünyada ən çox şərab idxal edən ölkələrdən Çin və Rusiya bazarları Azərbaycan şərabı üçün potensial bazarlar kimi dəyərləndirilir. Azərbaycan bu bazarlarda rəqabətqabiliyyətlidir və həmin bazarlarda öz payını əhəmiyyətli dərəcədə artıra bilər.

Kənd Təsərrüfatı Nazirliyinin Meyvəçilik və üzümçülüyün təşkili və monitorinqi şöbəsinin müdiri Tofiq Rzayev çıxış edərək deyib ki, son illərdə respublikamızda üzümçülüyə və şərabçılığa xüsusi diqqət yetirilir və bu sahənin inkişafı üçün mühüm dövlət qərarları qəbul olunur. 2011-ci ildə "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı", 2016-cı ildə "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair strateji yol xəritəsi" təsdiq edilib.

Ölkədə şərab istehsalının stimullaşdırılması üçün son illər bir sıra tədbirlərin həyata keçirildiyini diqqətə çatdıran T.Rzayev deyib: "Əlverişli bazar mühitinin formalaşdırılması məqsədilə "Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il tarixli fərmanı ilə şərab və şərabçılıq məhsullarının istehsalına, idxalına və satışına xüsusi icazə (lisenziya) alınması tələbi ləğv edilib. Eyni zamanda, "Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" 2016-cı il tarixli fərmana uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il tarixli qərarına əsasən ixrac olunan şərab və şərabçılıq məhsullarının qlobal rəqabət qabiliyyətinin artırılması və ixracatçıların dəstəklənməsi məqsədilə ixrac dəyərinin 6 faizi miqdarında ixrac təşviqi ödənilir".

"2018-2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı"nın respublikada üzümçülük və şərabçılığın inkişafına dair dövlət siyasətini və strategiyasını formalaşdıraraq nəzərdə tutulmuş tədbirlərin uğurla həyata keçirilməsini təmin edəcəyini vurğulayan nazirlik rəsmisi qeyd edib ki, qarşıda istehsal keyfiyyətinin və ixracın artırılması ilə bağlı ciddi vəzifələr və hədəflər dayanır.

"Hazırda 19 əsas istehsalçı rayon üzrə potensial məhsuldarlığın 20 faiz yüksəldilməsi, üzüm bağlarının isə 2,5 dəfə genişləndirilməsi məqsədəuyğun hesab edilir. Seçilmiş 19 rayon üzrə 18 min hektar yeni üzüm bağlarının salınması planlaşdırılır. Həmin üzümlüklərdən isə 100 sent/ha orta məhsuldarlıqla 300 min ton üzüm istehsalı gözlənilir ki, bu da hədəflənən istehsal göstəricisindən də yüksəkdir. 2018-ci ildə ölkədə üzüm ehtiyatlarının cəmi 186,1 min ton təşkil edib. Ehtiyatların 90,1 faizi və ya 167,6 min tonu ölkə daxilində istehsal olunub, 9,1 faizi və ya 16,9 min tonu idxal edilib. Ümumilikdə üzüm üzrə özünütəminetmə səviyyəsi 92,5 faizi təşkil edib. 2018-ci ildə adambaşına 10,2 kiloqram üzüm istehlak olunub", - deyə T.Rzayev əlavə edib.

Üzümçülük və şərabçılıq sahəsində uzun illərdir İtaliyada çalışdığını və müəyyən təcrübə əldə etdiyini deyən beynəlxalq ekspert Pizzi Angelo Antonio çıxışında keyfiyyətli şərab istehsalında torpaq, üzüm sortu və texniki qulluq məsələlərinə xüsusi diqqət yetirilməsinin vacib olduğunu deyib. Onun sözlərinə görə, müasir texnologiyaların tətbiqi də bu sahənin inkişafı baxımından önəmli amildir və buna xüsusi diqqət yetirilməlidir.

Azərbaycan Standartlaşdırma İnstitutunun baş direktoru Namiq Tağıyev isə şərabçılığın inkişafı istiqamətində standartlaşma sahəsində görülən işlərdən danışıb. Bildirib ki, "2018-2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı"nın qəbulu bu sahənin inkişaf etdirilməsi ilə yanaşı, bu gün qeyri-neft sektorunun digər sahələri kimi şərab ixracının artırılmasını da başlıca vəzifə kimi qarşıya qoyur. Bu məqsədlə müasir tələblərə cavab verən mütərəqqi beynəlxalq standartların tətbiqi vacib amildir və institut da fəaliyyətini bu istiqamətdə qurub. Namiq Tağıyev yerli şərab istehsalçılarını əməkdaşlığa dəvət edib, onlara bu istiqamətdə kömək göstərməyə hazır olduqlarını bildirib.

"Dəyirmi masa" müzakirələrlə davam edib, təkliflər səsləndirilib.

Sonra beynəlxalq və yerli ekspertlərin iştirakı ilə şərab istehsalçılarının və somelyelərin master-klasları keçirilib.

Qeyd edək ki, avqustun 31-dək davam edəcək I Azərbaycan Üzüm və Şərab Festivalı Heydər Əliyev Fondunun dəstəyi, Kənd Təsərrüfatı Nazirliyi, Şamaxı Rayon İcra Hakimiyyəti, "Regional İnkişaf" İctimai Birliyi, Dövlət Turizm Agentliyi və Azərbaycan Milli Xalça Muzeyinin birgə təşkilatçılığı ilə keçirilir. Layihənin məqsədi yerli üzüm və şərab istehsalının təşviqi, şərab məhsullarının ixrac potensialının artırılması, Azərbaycanda şərab istehsalı tarixinin geniş ictimaiyyətə çatdırılmasıdır.



# Mədəniyyət



● Tarixləşən heykəllər



# Beynəlxalq forumlara evsahibliyi etmək ölkəmizin nüfuzunu artırır

## Bu forumlarda dünyanı narahat edən problemlərin həlli yolları müzakirə olunur

*Əvvəli 1-ci səh.*

VI Bakı Beynəlxalq Forumu da özündən əvvəlkilər kimi, ümumbəşəri narahatlığın müzakirə və diskussiya şəklində həlli yollarına həsr edildi. “Yeni dünya və yeni insan formalaşdıraq: yaradıcılıq və insan inkişafı” mövzusunda keçirilən VI Bakı Beynəlxalq Humanitar Forumunun açılışında Prezident İlham Əliyevin dediyi kimi, Azərbaycan dünyada multikulturalizmin ünvanlarından birinə çevrilib və bu şərəfli status artıq dünya birliyi tərəfindən tanınır: “Multikulturalizm Azərbaycanda həm dövlət siyasətidir, həm həyat tərzidir, eyni zamanda, biz dünya birliyinin diqqətini bu məsələyə cəlb etməyə çalışdıq. Azərbaycanın bu sahədəki təcrübəsi həm təqdirəlayiqdir, həm də gözəl nümunə ola bilər. Biz multikulturalizmin bəhrəsini gündəlik həyatda görürük. Bu gün Azərbaycanda yaşanan sabitlik, vətəndaş həmrəyliyi, milli həmrəylik, o cümlədən bu dəyərlərə əsaslanır”.

Forum çərçivəsində “Bakı Prosesi” - İnsan təhlükəsizliyi, sülh və davamlı inkişaf naminə mədəniyyətlərarası dialoq: 10 ilin dərsləri və perspektivləri” mövzusunda mədəniyyət naziri Əbülfəs Qarayevin moderatorluğu ilə keçirilən III plenar sessiyada qeyd edildi ki, bu təşəbbüs mədəniyyətlərarası dialoqun təşviq edilməsi üçün Avropa və ona qonşu region ölkələrinin mədəniyyət nazirlərinin Avropa Şurası ilə tərəfdaşlıq çərçivəsində 2008-ci il dekabrın 2-3-də Bakıda keçirilmiş konfrans zamanı Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən irəli sürülüb. Ötən müddət ərzində müxtəlif beynəlxalq təşkilatlarla bu məsələdə birgə əməkdaşlıq edilib. BMT, UNESKO, Dünya Turizm Təşkilatı və digər beynəlxalq təşkilatlar bu gün də “Bakı Prosesi”nə, onun səmərəliliyinin artırılmasına dəstək verirlər. Qarşıdakı illərdə isə bu əməkdaşlığın daha da genişləndiriləcəyinə şübhə yoxdur.

İki gün davam edən Forumda iştirakçı dövlətlərin sayının xeyli artması da onun əhəmiyyətini təsdiqləyirdi. 90-dan çox ölkə və 24 beynəlxalq təşkilatdan 580-dən artıq nümayəndənin iştirak etdiyi VI Bakı Beynəlxalq Humanitar Forumunda çox ciddi məsələlər müzakirə edildi.

2008-ci ildən etibarən başlanan “Bakı Prosesi” çərçivəsində Azərbaycan mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsi istiqamətində mühüm işlər görüb. Ona görə Bakı Beynəlxalq Humanitar forumlarına marağın miqyası ildən-ilə artır. Çünki onlarda müxtəlif mövzularda müzakirələr aparılıb. Həmçinin ayrı-ayrı sahələr üzrə, o cümlədən təhsil, mədəniyyət nazirlərinin görüşləri təşkil edilib. Bu görüşlərdə mədəniyyətlərarası dialoqla bağlı hökumətlərin gördüyü işlər müzakirə edilib. Həmçinin turizm sənayesi də bu proqramlara qoşularaq mədəni mübadilələrdə fəal iştirak edir. Biznes dairələrinin rəhbərləri, böyük şirkətlərin nümayəndələri də bu mədəni mübadilələrə qoşulmağa dəvət edilib.

Mədəniyyətlərarası dialoqla bağlı mühüm təşəbbüslərdən biri də Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən irəli sürülüb. Belə ki, UNESKO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Bakıda beynəlxalq təşkilatların rəhbərlərinin toplantısı keçirilib. Müxtəlif sahələr üzrə fəaliyyət göstərən beynəlxalq təşkilatların rəhbərlərinin toplantısı da mədəniyyətlərarası dialoqa mühüm töhfə olub.

Ümumilikdə iki gün ərzində müxtəlif sessiya və panellərdə 150-dən çox məruzə dinlənilib. Forum gələcək dünyanı formalaşdıracaq kreativ ideyalar və onların həyata keçirilməsi yollarının axtarılmasını diqqətdə saxlayıb, bəşəriyyəti narahat edən digər aktual məsələlərin həlli yollarını araşdırıb.

UNESKO-nun sabiq baş direktoru İrina Bokova “Bakı Prosesi”nin 10 illiyi ilə bağlı keçirilən sessiyanın böyük əhəmiyyətə malik olduğunu diqqətə çatdıraraq deyib ki, bu istiqamətdə birgə aparılan işlərin davamlı olması vacibdir: “Biz xalqlarımızın, cəmiyyətlərimizin gələcəyini birgə müəyyənləşdiririk. Mədəniyyətlərarası dialoq üçün siyasi gündəliyin olması çox mühümdür. Burada mən şahidi oluram ki, Bakı forumları mövcud problemlərin müasir həlli yollarının tapılmasına mühüm töhfələr verir. Biz yalnız mədəniyyətlərarası dialoqa diqqət yetirməklə mənfi çağırışlara qarşı mübarizə apara bilərik”.

Belə beynəlxalq tədbirlər sırasına Bakıda keçirilən sivilizasiyalararası dialoq forumları da əlavə edilməlidir. Respublikamızın təşəbbüsü ilə bir neçə il öncə dünya dini liderlərinin zirvə toplantısı da paytaxt Bakıda keçirildi. Azərbaycan Prezidentinin qeyd etdiyi kimi, Bakı Beynəlxalq Humanitar forumların mahiyyəti bu mənada genişdir və tarixi əhəmiyyət daşıyır.

***Məhəmməd NƏRİMANOĞLU, “Azərbaycan”***

● Arxeologiya

## Qızıl Orda dövrünə aid dekorativ pannonun fraqmentləri tapılıb



XIV əsrdə Qızıl Orda dövlətinin Azak şəhərinin xarabalıqları üzərində salınmış Rusiyanın Rostov vilayətindəki Azov şəhərində aparılan arxeoloji qazıntılar zamanı dekorativ pannonun fraqmentləri tapılıb. Bu tapıntı alimləri həmin dövlətin şəhərlərində sənət və yaradıcılıq ənənələrini yenidən nəzərdən keçirməyə vadar edib.

Arxeoloqların fikrincə, Orta əsrlərdə Şərqi Avropanın ən böyük şəhərlərindən biri olan Azak qədim mədəniyyət abidələri ilə zəngindir. Tapılan panno zənginlərdən birinin evinin xarabalığında olan zibil qalıqlarının altında aşkar edilib. Onun fraqmentlərinin kiçik olmasına baxmayaraq, alimlər dekorativ sənət əsərinin tam mənzərəsini bərpa edə biliblər. Parçaya bürünmüş taxta üzərində işlənmiş naxışlar ağ fonda qırmızı, qəhvəyi və qara rəngdədir. Alimlər bildiriblər ki, panno həmin dövrə aid bu ərazidə tapılan unikal əşyadır və o, yalnız yüksək məharəti olan sənətkar tərəfindən işlənə bilərdi.

Qeyd olunur ki, 2019-cu ildə aparılan qazıntılarda arxeoloqlar qədim Azak şəhərindən qalan iki daş bina, ona yaxın küçə, 50 qəbrin qalıqlarını da tapıblar.

● Festival

## “Salam” yeniyetmə kinofestivalı keçiriləcək

**Sentyabrın 2-dən 5-dək “Nərimanfilm” kinostudiyasının təşkilatçılığı, Mədəniyyət Nazirliyinin, Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının dəstəyi, “Pasha Holding” MMC-nin və bir sıra təşkilatların sponsorluğu ilə “Salam” Beynəlxalq yeniyetmə kinofestivalı keçiriləcək.**




300-ə qədər 13-17 yaşlı yeniyetmənin iştirak edəcəyi festivalda bir sıra xarici ölkələrdən gənclər dəvətlidir. Festival ərəfəsində yeniyetmələr dünya kinematoqrafiyasının nümunələrinə baxaraq filmləri müzakirə edəcək və münsif kimi səs verərək qalibləri müəyyənləşdirəcək.

Film nümayişləri ilə yanaşı, praktik məşğələlər, əyləncəli proqramlar və ekskursiyalar da keçiriləcək.

Layihənin məqsədi gəncliyimizin milli-mənəvi və ümumdünya dəyərlərinə uyğun tərbiyə olunması, Azərbaycan və digər ölkələrin yeniyetmələri arasında dostluq əlaqələrinin yaradılması, mədəniyyətimizin təbliğidir.

● Film

## Nəsimiyə həsr olunan televiziya filmi çəkilib




“Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin “Azərbaycantelefilm” Yaradıcılıq Birliyi yeni bədii televiziya filminin çəkilişlərini başa vuraraq təhvil verib.

“Son gecə” adlı film Azərbaycanın dahi şairi İmadəddin Nəsimiyə həsr olunub. “Nəsimi ili” çərçivəsində ərsəyə gələn film şairin zindanda - edamdan əvvəl son gecəsindən bəhs edir. Film Rəsul Rzanın eyniadlı poeması əsasında çəkilib. Filmdə maraqlı faktlardan biri üç fərqli Azərbaycan şairinin - Nəsimi, Mirzə Ələkbər Sabir və Rəsul Rza obrazlarının eyni səhnədə, eyni kadrda lentə alınmasıdır.

Filmin ssenari müəllifləri Afaq Vasifqızı və Pərvin, quruluşçu rejissorları Xalq artisti Ramiz Həsənoğlu və Nazim Məmmədov, quruluşçu operator Əməkdar mədəniyyət işçisi Eldar Məmmədov, quruluşçu rəssam Rafael Əlizadə, qrim rəssamı isə Elbrus Vahidovdur.

Nəsimi rolunu Əməkdar artist Elşən Rüstəmov oynayır. Filmdə Əməkdar artist Vidadi Əliyev, aktyor Vüsal Murtuzəliyev və başqaları çəkilib. Film sentyabr ayından ekranda nümayiş etdiriləcək.

● Tədbir

## Bakıda dördüncü dəfə İndoneziya mədəniyyəti festivalı keçiriləcək

Bu günlərdə Bakı daha bir beynəlxalq mədəni tədbirə evsahibliyi edəcək. Respublika Mədəniyyət Nazirliyinin dəstəyi ilə sentyabrın 11-15-də Heydər Əliyev Sarayında 4-cü İndoneziya mədəniyyəti festivalı keçiriləcək. Festivalda İndoneziyanın Təhsil və Mədəniyyət, Gənclər və İdman, eləcə də aidiyyəti nazirliklərinin nümayəndələri təmsil olunacaqlar.

İndoneziyanın ölkəmizdəki səfiri Hüsnan bəy Fənani festivala hazırlıqla bağlı keçirilən tədbirdə bildirib ki, Heydər Əliyev Sarayından start götürən möhtəşəm tədbir sonrakı günlərdə Fəvvarələr meydanında davam etdiriləcək.

Əvvəlki illərdə olduğu kimi, budəfəki festivalda da İndoneziyanın tarixi, mədəniyyəti, milli mətbəxi, adət-ənənələri ilə bağlı ən gözəl nümunələr tamaşaçılara təqdim ediləcək. Diplomat qeyd edib ki, bu festival İndoneziya xalqının Azərbaycanda daha yaxından tanınmasına mühüm töhfə verəcək. İndoneziyadan iqtisadiyyat, turizm və digər sahələrin təmsilçiləri, musiqi, incəsənət və ədəbiyyat sahəsinin tanınmış nümayəndələri də festivalda iştirak edəcəklər.

Diplomat onu da vurğulayıb ki, İndoneziya Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində dövlətimizin haqlı mövqeyini dəstəkləyir. İndoneziya parlamentinin sədri yaxın günlərdə Bakıda səfərdə olarkən bunu bir daha bəyan edib.

Tədbirdə iştirak edən İndoneziya parlamentinin nümayəndəsi Həsən Hüseyn ölkəsi ilə Azərbaycan arasında siyasi və iqtisadi əməkdaşlıqdan bəhs edib. O deyib ki, dövlətlərarası münasibətlər yüksələn xətt üzrə inkişaf edir. Bu əməkdaşlıq elm, təhsil və mədəniyyət sahələrində də özünü göstərir.

***“Azərbaycan”***

● Sənət fədailəri

# Rəssamlıqda İlya Repin zirvəsi

**Psixoloji məqamları ilə izləyicilərə güclü təsir göstərən əsərlərinə görə onun tərifini göylərə qaldıranlar da vardı, kəskin şəkildə tənqid edənlər də. Amma hər kəs istər-istəməz bunu etiraf edirdi: İlya Repin qeyri-adi istedada malik rəssamdır. Hələ yaşadığı dövrdə ondan nümunə götürənlər çox idi. İlya Repin isə sənətin şöhrətlə qovuşduğu yolda öz ömrünü yaşayırdı...**

### İlk heyranlıq...

O, Xarkov yaxınlığında yerləşən Çuquyev şəhərciyində 1844-cü il avqustun 5-də dünyaya gəldi. Atası hərbçi, anası müəlliməydi.

Uşaq ikən qohumlarından birinin hədiyyə gətirdiyi sulu boya onu məftun etdi. Balaca İlya rəsmlər çəkməyə elə aludə olurdu ki, dünyanı unudurdu. Onu heyran edən sənətin adını sonralar öyrəndi. Bu, rəssamlıq idi...

On bir yaşında valideynləri onu hərbi topoqrafiya məktəbinə göndərdilər. Ancaq iki il oxuduğu şöbə bağlandı. Repin ikona ustası, rəssam İ.M.Bunakovun emalatxanasında şagird kimi çalışdı. Sonralar böyük şöhrət qazanacağı portret rəssamlığını öyrənməyə də o zaman başladı. Tezliklə İ.M.Bunakovun istedadlı tələbəsi barədə xəbərlər Çuquyevdən uzaqlara yayıldı.

On altı yaşında həm emalatxananı, həm də ata evini tərk etdi. Bir müddət ikonalar çəkməklə və qədim ikonaların bərpası ilə məşğul oldu. Çəkdiyi ikonaları yerli kilsələrə satmaqla dolandı.

Sankt-Peterburqa 1863-cü ildə getdi. Rəssamlıq Akademiyasında oxumaq arzusu asanlıqla həyata keçmədi. Klassik rəssamlığı bilməyən on doqquz yaşlı gənci akademiyaya qəbul etmədilər. Bu uğursuzluq İlya Repini çox məyus etsə də, ruhdan sala bilmədi. Böyük həvəslə rəsmlər çəkdi, təhsil almaq üçün yollar axtardı. İ.N.Kramskinin dərs dediyi rəssamlıq məktəbinə daxil oldu. Diqqətini çəkdiyi müəllimi ilə dostlaşdı. Bu dostluq Repinin həyatında mühüm rol oynadı.

### Bir-birini izləyən uğurlar

Nəhayət, arzusuna çatdı. Rəssamlıq Akademiyasında təhsil almağa başladı. Birinci kursun sonunda “Talan olunmuş Yerusəlimdə peyğəmbərin göz yaşları” əsərinə görə əla qiymət aldı.

1870-ci ilin mayında Volqaya yollandı. Bu səfər gənc rəssama gələcək əsərləri üçün mövzular verdi. Məşhur “Volqa yedəkçiləri” rəsminin ideyası da orada yarandı. Diplom işi ilə bərabər bu əsər üzərində də çalışdı. “İairin qızının vəfatı” adlı diplom işi ona qızıl medal və 6 illik ölkə xaricinə səfər etmək hüququ qazandırdı.

O vaxtlar Repinin şöhrəti artıq Rusiyanın paytaxtını aşmışdı. 1873-cü ildə tamamladığı “Volqa yedəkçiləri” əsəri Vyanada beynəlxalq sərgidə nümayiş olunduqdan sonra isə gənc rəssamı Avropada tanıdılar.

Qazandığı təqaüdlə 1873-1876-cı illərdə İtaliyanı dolaşdı. Bir müddət Parisdə yaşadı. Orada İlya Repin ən bahalı rəsmini - “Paris kafesi” (1874-1875) və məşhur “Sadko” (1876) əsərlərini çəkdi.

Avropa incəsənəti ilə yaxından tanış olmuş rəssam 1876-cı ildə, təqaüdünün müddətinin bitməsinə iki il qalmış Rusiyaya qayıtdı. 1870-1880-ci illər Repin yaradıcılığının ən məhsuldar dövrü oldu. O, “Qorxaq kəndli” (1877), “Bədnəzər kəndli” (1877), “Tövbədən imtina” (1879-1885), “Bir təbliğatçının həbs olunması” (1880-1892), “Onu gözləmirdilər” (1884-1888) kimi əsərlərində rus həyatının sosial ziddiyyətlərini və ictimai münasibətləri əks etdirdi.

İlya Repin tarixi mövzulara böyük maraq göstərirdi. “Şahzadə Sofiya” , “İvan Qroznı və oğlu İvan”, “Zaporojyelilər Türkiyə sultanına məktub yazarkən” , “Kursk quberniyasında xaç gəzdirilməsi” və başqa tabloları tarixi hadisələrin əks etdirilməsi baxımından da əhəmiyyətlidir.

### İlya Repinin qadağan olunmuş əsəri

XIX əsrin ikinci yarısında mütərəqqi rus rəssamlığı ən yüksək inkişaf mərhələsinə çatdı. Belə bir vaxtda İlya Repinin yaradıcılığı rus demokratik-realist incəsənətinin zirvələrindən biri sayılırdı.

Ən məşhur əsəri olan “İvan Qroznı və oğlu İvan” rəsmi üzərində dörd il işlədi. Rəssam “Uzaq-yaxın” adlı avtobioqrafik



povestində yazırdı ki, bu şəkil barədə düşüncələri Nikolay Rimski-Korsakovun konsertindən qayıdarkən yarandı. Çox tələbkar olan rəssam “İvan Qroznı və oğlu İvan” əsərini özünə rəhm etmədən yaratdı. Sonralar bu barədə yazırdı: “Tabloda şəkli birnəfəsə çəkirdim. Əziyyət çəkir və həyəcan keçirirdim, artıq çəkdiyimi təkrar-təkrar düzəldirdim. Xəstəcəsinə peşimançılıq hissi ilə çəkdiklərimi gizlədir, daha sonra isə şüurumun daxilindən yeni fantaziyanı çıxararaq kətanın üzərinə yenidən hücum edirdim”.

Fevralın 10-da Sankt-Peterburqda, knyaz Yusupovların evində açılan möhtəşəm sərgidə tablo təqdim olundu. “İvan Qroznı və oğlu İvan” əsərinin ilk nümayişi haqqında təəssüratlar müxtəlif oldu. Tablonu həddindən artıq bəyənənlər və amansızlıqla tənqid atəşinə tutanlar da var idi. Rus Pravoslav Kilsəsi Müqəddəs Sinodunun başçısı Konstantin Pobedonostsev isə əsərə baxanda möhkəm əsəbiləşdi. O, narazılığını imperatora bildirdi. Beləliklə, şəklin sərgilərdə nümayişi qadağan edildi. Bu tablo rus imperiyasında senzuraya məruz qalan ilk rəsm əsəri oldu. Sarayda çalışan sənətkar Aleksey Boqolyubovun xahişi ilə qadağa 1885-ci il iyunun 11-də aradan qaldırıldı. Sonrakı illərdə İlya Repin rus incəsənətinin dahisi, bu tablo isə onun ən mühüm əsərlərindən biri sayıldı.

“İvan Qroznı və oğlu İvan” ilk dəfə sərgidə nümayiş olunanda əsərə iyirmi səkkiz yaşlı ikonayazar Abram Balaşov hücum etdi. “Novoye vremya” qəzeti 17 yanvar 1913-cü il tarixli sayında yazırdı: “Bir neçə zalı keçdikdən sonra, o, Boyarınya Morozova əsərinin qarşısında duraraq, ona nəsə pıçıldayırdı, Repin İvan Qroznının şəklinin yerləşdiyi zala daxil olanda isə, o, birdən şiddətli çığırtı ilə onun yanına qaçdı, rəsm əsərini hasarlayan səddi və qaytanı aşaraq “Qanın axıdılmasına son!” sözləri ilə şəkli iti bıçaqla üç dəfə kəsdi”.

Balaşovun psixoloji cəhətdən problemli insan olduğu barədə mütəxəssislər rəy verdilər. Onu ruhi xəstələr üçün dispanserə yerləşdirdilər.

İvan Qroznı və oğlunun üzləri tabloda bir-birinə çox yaxın yerləşdiyindən hər ikisi ciddi zədələnmişdi. Qalereyaya gələn qəyyum İ.S.Ostrouxov əsərin restavrasiyasının mümkünlüyünə əmin oldu. Təcili İlya Repinə teleqraf göndərdi. Yanvarın 17-də rəssam Kuokkaladan Moskvaya, Tretyakov qalereyasına gəldi, çarın və şahzadənin başlarını yenidən çəkdi. Bir neçə saatdan sonra emalatxanaya gələn rəssam, sənətşünas İqor Qrabar kətan üzərindəki təzə rəngləri və dəyişiklikləri görəndə əsəbiləşdi. Repin o vaxt artıq Moskvanı tərk etmişdi. Qrabar yeni rəngləri sildi, akvarellə əvvəlcə itirilmiş yerləri yenidən doldurdu və lak boyaları ilə tamamladı. Bir neçə ay sonra rəssam Tretyakov qalereyasına gələndə əsərin qarşısında xeyli dayandı, ancaq heç bir dəyişikliyi sezmədi.

Xoş xasiyyətli, mülayim insan olan İlya Repinin dostları çox idi. Onların arasında rəssamlarla yanaşı, yazıçılar, şairlər də vardı. Repinin Kuokkala qəsəbəsindəki evinə hər çərşənbə günü yaradıcı dostları - L.Tolstoy, L.Andreyev, M.Qorki, V.Korolenko və başqaları yığışırdılar. O evdə yeni əsərlərdən parçalar oxunurdu, F.Şalyapin mahnılar ifa edirdi.

Şöhrətli rəssam xalqın içindən çıxdığından əsərlərində də xalqa geniş yer verir, tez-tez kəndlilərin rəsmlərini çəkirdi. Rəssam rus ziyalı və aristokratlarının, həmçinin II Nikolayın rəsmlərinin də müəllifidir.

### Özünə rəhm etməyən sənətkar

Repin olduqca çalışqan idi. O, mücadilələrlə dolu sənət yolunda ən ağır imtahanla üzləşdi. Tibb elmi məşhur rəssamın qolunun qurumasının dəqiq səbəbini tapa bilmədi. Həkimlər bunu yalnız rəssamın gərgin iş qrafiki ilə əlaqələndirirdilər. Mistiklər isə rəssamın əlinin 1885-ci ildə “İvan Qroznı və onun oğlu İvan”ı çəkdikdən sonra quruduğunu əsas gətirərək bunu həmin əsərin lənətlənməsi ilə əlaqələndirirdilər. Deyirdilər ki, İlya Repin mövcud olmayan tarixi hadisələri əsərdə canlandırdığı üçün lənətlənib.

Rəssam sol əli ilə rəsmlər çəkməyi öyrəndi. Bundan sonra əsərlərinin böyük hissəsini sol əli ilə yaratdı. Onunla bağlı çox qəribə söz-söhbətlər isə yalnız bundan ibarət deyildi. İlya Repinin bütün qəhrəmanları rəsm başa çatandan sonra vəfat edirdilər. Çoxu da öz əcəli ilə ölmürdü. Bəstəkar M.P.Musorqskinin şəkli hazır olanda yoluxucu xəstəlikdən dünyasını dəyişdi. Portretini çəkdiyi rəssam A.Pismenski də öldü. Repin şair F.İ.Turqenevin portretini çəkməyə hazırlaşanda o da dünyadan köçdü. Bir gün yumoristlərdən biri rəssama yalvardı: “İlya Efimoviç, bizə rəhminiz gəlsin. Stolıpinin də şəklini çəkin”. İlya Repin Saratov dumasının sifarişi ilə baş nazir P.A.Stolıpinin şəklini çəkdi. Şəkil hazır olan kimi Stolıpin Kiyevə yollandı. Orada qətlə yetirildi.

Hesab edirdilər ki, İlya Repinin rəsmləri ölkədəki siyasi hadisələrə də öz təsirini göstərir. Rəssam II Aleksandrın sui-qəsd nəticəsində öldürülməsindən bir qədər əvvəl, 1881-ci ildə Rusiyadakı inqilabi əhvali-ruhiyyə ilə bağlı “Etirafın rədd olunması”, “Bir təbliğatçının həbs olunması”, “Görüşmə”, “Onu gözləmirdilər” kimi əsərlər çəkmişdi.

1903-cü ildə Rusiya hökuməti Repinə Dövlət Şurasının təntənəli iclasını təmsil edən əsər sifariş etdi. Rəssam iki şagirdi ilə birlikdə əsəri işlədi. Tamamlanması iki il çəkən “Dövlət şurasının təntənəli açılışı” adlı bu əsərdə 81 nəfər yüksək vəzifəli dövlət xadimi təsvir olundu. Həmin məmurlar 1905-ci ildə, ilk rus inqilabında öldürüldülər.

O, 1911-ci ildə Romaya səfər etdi. Geri döndükdən sonra Kuokkala qəsəbəsindəki evində xatirələrini yazmağa başladı. Rəssam özü dizayn etdiyi həmin evini Penati adlandırırdı. Penati sözü latınca ev tanrıları mənasında işlənən Penates sözündəndi.

1917-ci ildə baş verən Oktyabr inqilabından sonra Finlandiya müstəqilliyini elan etdi. O zaman Kuokkala Finlandiyanın ərazisi sayılırdı. SSRİ-nin bir sıra qurumlarının dəvətlərindən isə Repin səfər etmək üçün qoca olduğunu bəhanə gətirərək imtina edirdi.

İlya Repin 1926-cı ildə onu ziyarətə gələn bir qrup SSRİ sənətçisinə inqilabi mövzuda olan “Nümayişçilərə atəş açılması”, “Qanlı bazar günü və Qızılın cənazəsi”, “Çarın edam masası” əsərlərini bağışladı.

Səksən altı yaşına çatmışdı. Nə xəstəlik, nə də qocalıq İlya Repini öz sevimli işindən ayıra bilməmişdi. Sağ əli ilə fırça tuta bilməyəndə sol əli ilə işləyirdi. 1930-cu il sentyabrın 29-da Kuokkalada (hazırda Repino adlanır və Rusiyanın tərkibindədir) vəfat etdi. Penatidə, evinin yaxınlığında 1940-cı ildə xatirə muzeyi açıldı. Bir xatirə muzeyi də Çuquyevdə yaradıldı. 1958-ci ildə Moskvada İlya Repinə abidə qoyuldu. İlya Repinin evi - Penati UNESKO-nun Sankt-Peterburq və onunla bağlı olan abidələr adlı Ümumdünya İrsi Siyahısına daxildir. Penati 1940-cı ildən ev-muzeyidir.

Sankt-Peterburq Boyakarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutu İlya Repinin adını daşıyır. Yalnız həmin ali təhsil ocağının tələbələri deyil, bu sənəti sevərək seçənlər rəssamlıq sənətində öz məktəbini yaratmış böyük rəssamın yaradıcılığından dərs alır, qoyub getdiyi heyrətamiz əsərlərdən öyrənirlər.

***Zöhrə FƏRƏCOVA, “Azərbaycan”***

Milli qəhrəmanlarımız

# Andından dönmədi

Ruslan Muradov 1973-cü ildə Mingəçevirdə anadan olub. İlk təhsilini bu şəhərin 15 saylı orta məktəbində alıb. Ruslanı daha yaxından tanımaq üçün onun dostlarına, keçmiş komandirlərinə müraciət etdik. Amma ən yaxşı məlumatı özünün yazdığı gündəlikdən öyrəndik. Dostları, tanışları deyirlər ki, çox danışmağı sevmirdi. Amma mərdliyinə, inadkarlığına söz ola bilməzdi. Öz əhatəsində nüfuz qazanmağı da bacarırdı.



Ruslan gündəliyində qeyd edir ki, elə şeylər var onlardan pay, sədəqə olmur. Cəsarəti, düzgünlüyü, daxili inamı gərək özün qazanasan. Daha sonra cəbhəyə yola düşdüyü günləri xatırlayır: "Könüllü olaraq hərbi çağırış məntəqəsinə yollandım. Xahiş etdim ki, məni cəbhənin ən qaynar nöqtələrindən birinə göndərsinlər. Atamın, anamın bu hərəkətimdən xəbəri olanda mən artıq cəbhəyə yola düşmüşdüm. Bilirdilər ki, öz istəyimdə çox inadkaram, yəni geriyə yol yoxdur. Yurdumuzun bir hissəsi təhlükədə, düşmən tapdağında qalıbsa, biz də borcumuzu yerinə yetirməliyik. Bunun üçün heç kəsin müdaxiləsinə ehtiyac yoxdur".

Bir neçə gün sonra Ruslanı cəbhənin Ağdam bölgəsinə göndərirlər. Onda Ağdamın Paprəvənd kəndi düşmən mühasirəsində idi. Vəziyyət çox mürəkkəb idi. Ruslan ilk əməliyyata bu kənddən başladı...

Ruslan Muradov gündəliyində yazır ki, bu vaxta qədər Ağdamda olmamışdım. Paprəvənd kəndini də görməmişdim. Amma düşdüyümüz vəziyyət tələb edirdi ki, ağır döyüşlərdə axıra qədər iştirak edək. Ən böyük köməyim o oldu ki, bu kənddə onlarla döyüşçünün daha təhlükəsiz yerlərə çatdırılmasına kömək etdim. Ağır döyüşlərin birində özüm də yaralandım. Amma qısa fasilədən sonra yenidən döyüşlərə girdim. Biz açıq-aşkar bilirdik ki, düşmənə öz havadarlarından çox böyük yardım gəlir. Onların silah-sursat ehtiyatı tükənmirdi. Qeyri-bərabər döyüş gedirdi. Amma biz öz gücümüzə inanırdıq. Ona görə də qətiyyən geri çəkilmirdik. Əksinə, düşmənə sübut etmək istəyirdik ki, bizim el-oba sevgimiz, torpaq qeyrətimiz hər şeydən güclüdür. Bilirdik ki, nə qədər müqavimət olsa belə, geriyə yol yoxdur.

Ruslanın gündəliyində oxuyuruq: "Ən çətin döyüşlərin birində düşmənə əsir düşmək təhlükəsi var idi. Amma biz əməliyyatları elə çevikliklə aparırdıq ki, düşmən istəklərinə asanlıqla çata bilmirdi. Apardığımız əməliyyatlar bizə kömək etdi ki, çətin döyüşlərdə düşmənin əhatəsindən uzaqlaşa bilək. Mən dostlarıma da, elə komandirimə də açıq-aşkar demişdim ki, əgər əsir düşmək təhlükəsi yaransa, öz canıma qıymağa hazıram. Açığını deyim ki, bizi bu ruhda, bu əhvalda tərbiyə etmişdilər. Ona görə də andımızdan, inamımızdan dönə bilməzdik..."

Bu sətirlərin müəllifinin heç 19 yaşı tamam olmamışdı. Amma onun düşüncələrində, təfəkküründə bir yetkinlik var idi. Hiss edirsən ki, aldığı tərbiyə, təhsil onu belə böyüdüb. Hər şeylə asanlıqla barışmır. Elə anasına yazdığı məktubda da çox şeyləri cəsarətlə etiraf edirdi. Onların zəhmətini, əziyyətini qədərincə qiymətləndirirdi. Amma son qərarı bu olur ki, torpağın, elin, obanın taleyi heç vaxt zərrə qədər də güzəşt sevmir. Ruslan yazır ki, "mənim də böyük arzularım, istəklərim vardı. Hələ sevdiyim alagözlü bir qız da. Amma elə məqamlar var ki, onları heç nə ilə dəyişmək olmur. Biz cəbhə bölgəsinə yola düşəndə bilirdik ki, hiyləgər düşmənlə üz-üzəyik. Onları öz torpaqlarımızdan təmizləməliyik".

Ruslan Muradov Mingəçevirdə orta təhsilini başa vurandan sonra istehsalatda çalışmışdı. Zəhmətdən, halal yaşamaqdan zövq alırdı. Ermənilər torpaqlarımızı zəbt etməsəydi, Ruslanın görəcəyi işlər çox idi. Azərbaycan polisinin sıralarında qulluq etmək istəyirdi. Bunun üçün onun bacarığı da vardı, tələb olunan fiziki hazırlığı da. Amma düşmən onu Paprəvənd uğrunda gedən döyüşlərin birində ağır yaraladı. Və bundan sonra Ruslan cəbhəyə geri dönə bilmədi...

Dostları, əhatəsində olan yaxınları onun nə qədər hünərli, çevik bir döyüşçü olduğunu dönə-dönə xatırlayırlar. Deyirlər ki, onun çevikliyi bizim hər birimizə örnək və nümunə idi. O, həm özünə sevgi yaradırdı, həm də bizi döyüşə ruhlandırırdı.

Azərbaycanda belə qəhrəman oğulların sayı çoxdur. Amma yaşına, cüssəsinə görə bəlkə də ən kiçiyi Ruslan idi. Görəcəyi işləri sadalayanda adam hiss edirdi ki, onun tükənməyən enerjisi, gücü, qüdrəti var. Bütün bunları vətən uğrunda, xalq yolunda sərf etmək istəyirdi. Özü dəfələrlə demişdi ki, bizim bu yolda qazancımızla itkilərimiz arasındakı mütənasiblik pozula da bilər. Amma belə şeylərdə ruhdan düşməməliyik. Əksinə, yeni qüvvə ilə, yeni güclə döyüşləri davam etdirməliyik. Biz ölməyə yox, öldürməyə meyilliyik. Düşmən bizi belə böyüməyə məcbur etdi.

Bu gün Mingəçevirdə 15 saylı orta məktəb Ruslanın adını daşıyır. Hələ neçə-neçə nəsillər onun cəsarətindən, qəhrəmanlığından danışacaq, ona bənzəməyə çalışacaq.

O məktəbin həyətində bu gün də Ruslan hamıdan uca, hündür görünür. Özü də boy-buxununa görə yox, yalnız əqidəsinə, əməllərinə görə...

Nə yaxşı ki, bizim döyüş ənənələrini belə cəsarətli oğullar yaşadır. Bunu təkcə biz yox, düşmən də açıq-aydın hiss edir. Hiss edir ki, bu oğullar asanlıqla məğlub olmayacaq. Gələn nəsil onların ənənələrini, başladıqları şərəfli işi uğurla davam etdirəcək.

Bu xalqın öz ənənələri var. Elə nəsillər də bundan faydalanır, gələcəyə ümidlə baxır. Düşmən isə bu baxışlar qarşısında çaş qalır. Ruslan bütün bunları aydınlığı ilə anlayırdı. Deyirdi ki, bu gün ciddi qələbələrimiz olmasa da, düşməni niyyətindən geri çəkindirməyə gücümüz çatar. Elə buna görə də biz sabahın uğurlarına inanırıq. İnanırıq ki, bu xalq asanlıqla doğma yurdundan, doğma ocağından ayrılmayacaq...

*Bəşir ŞƏRİFLİ,*
*"Azərbaycan"*

Vətən sağ olsun

# Bir şəhid ocağının işığında

Bu gün Azərbaycanın hər bölgəsində, o cümlədən Naxçıvanda nümunəvi ailələr çoxdur.

Onların arasında hansısa bir sahədə fərqlənənlər də var, ömrünü bir sənətə həsr edib, onu ailəlikcə yaşadanlar da. İstehsalat təcrübəsi ilə seçilənlər də var, əməyi ilə böyük uğurlara imza atanlar da. Vətən torpağı uğrunda canlarından keçən şəhidlərimizin ailələri isə hər kəs üçün örnəkdir.

Belə ailələrdən birinə yollanıb, onun ocağının işığını yandıran yadigarları ilə görüşməyi mənəvi borc bildik. Bu, Naxçıvan Muxtar Respublikas Culfa rayonunun Camaldın kəndinin igid oğlu, ruhu şəhidlik zirvəsindən Vətənini və ailəsini seyr edən Mirəyyub Seyidovun ailəsidir.



Mirəyyub 1966-cı ildə anadan olub. Camaldın kənd orta məktəbində səkkizinci sinfi bitirdikdən sonra rayondakı texniki peşə məktəbində dülgərlik peşəsinə yiyələnib. Əsgəri xidmətini Rusiyada başa vurub, doğma Vətəninə qayıtdıqdan sonra Culfadakı istehsalat kombinatında fəhlə kimi işə başlayıb. Böyük məsuliyyəti, işə can yandırması ilə müəssisə kollektivinin dərin hörmətini qazanıb. Daha sonra isə əmək fəaliyyətini Culfa Rayon Polis Şöbəsində polis serjantı kimi davam etdirib. Sərhədlərimizin təhlükədə olduğu vaxtlarda Mirəyyub burada da fəallıq, canıyananlıq nümayiş etdirib: gecə-gündüz ona tapşırılan işlərin öhdəsindən layiqincə gəlib, hansı posta göndərilibsə, can-la-başla gedib, üzərinə düşən vəzifəni ləyaqətlə yerinə yetirib. Şərurda, Sədərəkdə erməni hücumlarının qarşısının alınmasında iştirak edib. 1990-cı ildə xüsusi təyinatlı polis işçisi kimi Sədərəkdə gedən qızğın döyüşlərdə iştirak edib, böyük şücaətlər göstərib. O, 1992-ci ilin 23 iyununda Sədərək uğrunda gedən döyüşlərdə şəhid olub.

Cəmi üç il birlikdə yaşadığı Süsən xanım onun yoxluğu haqqında böyük ürək yanğısı ilə danışır:

- Mirəyyubun qəlbi Vətən sevgisi ilə dolu idi. O, həm də çılğın təbiətli idi. Ermənilərin torpaqlarımıza göz dikməsinə dözə bilmirdi. Bu barədə danışanda gözləri sanki qan çanağına dönürdü. Evdə uşaqlar körpə olduqları üçün tez-tez problemlər yaranırdı. Mən bu problemləri yaxın qohumlarla həll edirdim. Mirəyyub isə ona tapşırılan işi yerinə yetirməyincə evə qayıtmazdı. Elə buna görə də daim çalışdığı kollektivin rəhbərliyi tərəfindən əməyi qiymətləndirilirdi. İndi Culfa şəhərində bir küçə və Mirəyyubun təhsil aldığı Camaldın kənd tam orta məktəbi onun adını daşıyır.

Süsən xanım yaralarının qaysağını qopararaq o günü xatırlayır. Həmin gün ailə qurduqlarının üçüncü ili tamam olurdu:

- Həmin gün özüm də geyinib kecinmişdim. Uşaqların da təzə pal-paltarlarını geyindirmişdim. Səhərdən axşamadək mətbəxdə onun sevdiyi yeməklərdən hazırlayıb süfrə açmışdım. Mirəyyubun yolunu gözləyirdik. Bilirdim ki, gec də olsa, gələcək. Çünki həmin günə çox dəyər verirdi. O, hökmən gecəyarısı da olsa, gəlib həmin günü bizimlə birgə qeyd etməli idi. Saatlar ötür, o isə gəlmirdi. Axşam saat 9-10 oldu. Uşaqlar yuxuladılar. Onları yataqlarına qoydum. İçimə qəribə bir narahatlıq doldu. Həmin günlər cəbhədə vəziyyət yaxşı deyildi. Ermənilər Naxçıvanla bütün sərhədboyu ərazilərdən kəndlərimizə hücum edirdilər. Sən demə, mən onun yolunu gözlədiyim anlarda o, yaralanıb, qan içində həyatla mücadilə edirmiş. Məndə belə bir hiss yaranmışdı: sanki indicə onunla bağlı nə isə eşidəcəyəm. Saat 12-yə yaxınlaşır, mən isə təlaş içərisində evdə gəzişirdim. Birdən qapı döyüldü. Qohumlarımızdan iki nəfər Mirəyyubun yaralandığı xəbərini gətirmişdi. "Ürəyimə gələn başıma gəldi" deyib əllərimi dizlərimə çırpdım. Bir azdan evliliyimizin üçüncü ildönümü "hədiyyəsini" qapımıza gətirdilər. Bu, Mirəyyubun soyuq cənazəsi idi...

Həmin gündən etibarən sevinc tariximiz olan 23 iyun həyatımızda öz yerini kədərə verdi. Artıq illərdir ki, o günü ailə qurduğumuz deyil, həyat yoldaşımın, övladlarımın atasının şəhid olduğu tarix kimi anıram.

Mirəyyub şəhid olan vaxt qızı Könül yaşyarımlıq, oğlu Mirqafar isə 10 aylıq imiş. Atalarının üzünü xatırlamayan, xasiyyətini, xarakterini bilməyən bu bacı-qardaş analarından və yaxınlarından eşitdiklərindən qəlblərində bir ata heykəli qurublar.

Süsən xanım 1992-ci ilin 23 iyunundan iki körpəsini tək böyütmək məcburiyyətində qalıb. Dövlət qayğısı ilə əhatə olunduqlarını minnətdarlıqla qeyd edən bu ana göstərilən dəstəklə, bir də yaxınlarının köməyi ilə övladlarını boya-başa çatdırdığını deyir. Süsən xanım uşaqlarına gözəl tərbiyə verib. Onların hər ikisi təhsil alıb. Könül musiqi müəllimidir. Ailə qurub, iki övladı var. Mirqafar da ali təhsillidir. O, atasının yolunu davam etdirir: Culfadakı "N" hərbi hissədə çalışır, böyük övladına da atasının adını verib. Ötən il qələbə sevincini yaşadığımız Günnüt kəndinin azad olunmasında Mirqafar da iştirak edib. O deyir:

- Atamla qürur duyuram. Buna görə də onun torpaqlarımızın azad olunması ilə bağlı arzularının davamçısı olmaq istədim. Söz yox ki, bütün şəhidlərimizin bir gün arzuları reallaşacaq, ruhları sevinəcək. Azad olunan torpaqlarımız Lələtəpə, Cocuq Mərcanlı, Günnüt kimi, bir gün də Kərki, Şuşa, Laçın erməni qəsbkarlarından geri alınacaq. Buna dövlətimiz hazırdır. Ali Baş Komandan cənab İlham Əliyevin söylədiyi fikirlər, hər il keçirilən hərbi paradda nümayiş olunan müasir texnika, bu yaxınlarda Türkiyə Silahlı Qüvvələri ilə birgə keçirilən döyüş atışlı təlimin möhtəşəmliyi də o günün lap yaxında olacağından xəbər verir...

Süsən xanım Culfa Rayon Rabitə İdarəsində çalışır. Bu əməksevər qadın gözəl ana, həm də qayğıkeş qayınanadır. Gəlini də övladları kimi, onun qürurundan ağızdolusu danışır. İndi o, oğlu, gəlini, bir də iki oğlan nəvəsi ilə dövlətimiz tərəfindən Culfa şəhərində onlara verilmiş mənzildə Vətən torpaqları uğrunda canından keçmiş bir şəhidimizin çırağını yandırır. Bu çıraqdan süzülən işıq isə hər kəsin qürur hissi duyduğu şəhid Mirəyyub Seyidovun ocağının ünvanını bəlli edir. O ünvan ki, daim yad ediləcək, qürur mənbəyimiz olacaq.

*Mətanət MƏMMƏDOVA,*
*Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti*

Qubadlının işğalından 26 il ötür

# Yurd həsrəti

## Bu niskillə yaşayanların ümidləri ilin hər fəslində göyərməkdə, dünya birliyi isə bu haqsızlığa hələ də dözməkdədir







Foto A.MƏMMƏDOVUNDUR









Qubadlı təcavüzkar Ermənistanın 1993-cü ilin avqust ayının son günündə işğal etdiyi, elə həmin tarixdən sakinləri respublikanın əksər bölgələrinə səpələnib müvəqqəti məskunlaşan, məcburi köçkünlük həyatı yaşamağa məcbur olan rayondur. 1930-cu ildə yaradılan Qubadlı rayonunun ərazisi 802 kvadrat kilometrdir. Qarabağ yaylasının cənub-şərqində yerləşir. Ermənistanla Dağlıq Qarabağ Muxtar Vilayəti arasındakı ərazidədir. Şimaldan Laçın, şərqdən Cəbrayıl, cənubdan Zəngilan rayonları ilə həmsərhəddir.

Rayonun iqtisadiyyatı yerləşdiyi coğrafi şəraitlə əlaqədar olub. Bol sulu Həkəri və Bərgüşad çayları vadisində yerləşən kəndlərin əhalisi münbit torpaqlardan əkinçilik məqsədilə istifadə edib. Rayon həmçinin tarixi-mədəni abidələrlə zəngin bölgə idi. Burada IV əsrə aid "Gavur dərəsi" ibadətgahı, beşinci yüzilliyin "Qalalı" və "Göyqala" abidələri, "Dəmirçilər türbəsi" və digər tarixi abidələr vardı. Həkəri və Bərgüşad boyu yaşayış məntəqələri abadlaşdırılmış, dağ kəndlərinə asfalt yollar çəkilmişdi. Özünə yaraşıqlı evlər tikənlərin, minik avtomobilləri alanların sayı çoxalmışdı.

Lakin Ermənistanın torpaq iddiası üzündən cəlb olunduğumuz münaqişə quruculuq işlərini yarımçıq qoydu: rayon müharibə meydanına çevrildi. Qaçaq Nəbinin, Həcərin qəhrəmanlıq ənənələrini davam etdirən igid qubadlılılar - Əliyar Əliyev, Kazımağa Kərimov, Aqil Məmmədov, Vasili Əliyev, Kərəm Mirzəyev, Bəylər Ağayev, Aslan Atakişiyev, Ələkbər Əliyev, Səfa Axundov... şəhidlik zirvəsinə ucalaraq göstərdikləri şücaətə görə Azərbaycan Respublikasının Milli Qəhrəmanı adına layiq görüldülər.

Ardı-arası kəsilməyən hücumlar vətənsevərlərin döyüş əzmini qıra bilməsə də, Şuşa və Laçının, Ağdam, Füzuli və Cəbrayılın işğal edilməsi Qubadlını mühasirə vəziyyətinə saldığından 1993-cü il avqust ayının 31-də əhali yurd-yuvasını tərk etmək məcburiyyətində qaldı.

O dəhşətli və məşəqqətli gündən qubadlılıları 26 illik bir zaman məsafəsi ayırır. Doğrudur, ölkəmizdə sosial müdafiəyə ehtiyacı olan insanlara, o cümlədən də məcburi köçkünlərə göstərilən dövlət qayğısı yüksək səviyyədədir və bu, həssaslıqla davam etdirilir. Onların sağlamlığının təmin olunması, güzəranlarının daha da yaxşılaşdırılması dövlət başçısının daim diqqət mərkəzindədir. Həyata keçirilən sosial-mədəni layihələrdən məcburi köçkünlər də layiqincə bəhrələnirlər. Son dövrlər məcburi köçkünlərin sosial müdafiəsinə diqqət, onlara verilən sosial müavinət, kommunal xərclərin ödənilməsinə ayrılan vəsait yarıbayarı artırılıb ki, bunlardan qubadlılılara da pay düşüb.

Daim zəhmətsevərlikləri ilə seçilən qubadlılılar məcburi köçkünlük illərində də əllərini əllərinin üstünə qoyub oturmayıblar. 38 min 200 nəfər qubadlılı respublikanın 41 rayon və şəhərində müvəqqəti məskunlaşıb. Onların 20 min 600 nəfəri əmək qabiliyyətlidir və əksəriyyəti Sumqayıt şəhərində məskunlaşıb. Rayonun icra strukturları, idarə və təşkilatları burada fəaliyyət göstərir. Bu qədər əraziyə səpələnmiş qubadlılıların sosial, kommunal, səhiyyə, təhsil və digər məsələləri ilə məşğul olmaq, onların üzləşdikləri problemləri həll etmək üçün icra strukturları xüsusi iş rejimində işləyirlər. Müvəqqəti məskunlaşma yerlərində yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində işlər davam etdirilir. Abşeron rayonunun Stansiya Sumqayıt adlanan ərazisində və Sumqayıtdakı 12-ci mikrorayonda məcburi köçkünlər üçün salınmış şəhərciklərdə yeni mənzillərə köçürülmə başa çatıb. 2100 ailə üçün salınan qəsəbələrin əsas sakinləri Qubadlıdan olan məcburi köçkünlərdir. Stansiya Sumqayıtdakı şəhərciyə 357, Sumqayıt şəhər 12-ci mikrorayondakına 521, Qaradağ rayonunun Ümid qəsəbəsinə isə 9 ailə köçürülüb. Abşeron rayonundakı şəhərcikdə rayonun Hal və Dəmirçilər kənd, qəsəbə 4 saylı tam orta məktəbləri, gigiyena və epidemiologiya mərkəzi, 140 yerlik Qubadlı şəhər 1 saylı körpələr evi-uşaq bağçası və rayon rabitə qovşağının poçt agentliyi fəaliyyətə başlayıb və çoxlu sayda məcburi köçkün işlə təmin edilib. Bütün bunlar qubadlılıların həyatına müsbət təsir edir. Rayon icra hakimiyyəti başçısının Sabirabad, Saatlı, İmişli, Xızı rayonlarında və digər yerlərdə keçirdiyi səyyar qəbullar zamanı qaldırılan məsələlərin həlli istiqamətində də xeyli işlər görülüb.

Sumqayıtdakı 40-cı məhəllədə məcburi köçkünlərin məskunlaşdığı 2 beşmərtəbəli binanın dam örtüyü dəyişdirilib, həyətə asfalt örtüyü çəkilib. Çoxsaylı müraciətlər əsasında Sumqayıt şəhər "Yaşıldərə" yaşayış massivində məhəllələrarası yollar asfaltlanıb, daxili imkanlar hesabına yas mərasimlərinin təşkilinə, xəstələrin müalicəsinə, Böyük Vətən müharibəsi veteranlarına, bir sıra tədbirlərin keçirilməsinə və s. məsələlərlə bağlı aztəminatlı ailələrə 36 min 700 manat pul yardımı edilib. Yerli gəlirlərdən rayonun büdcəsinə 1 milyon 314 min 43 manat daxil olub ki, bu da nəzərdə tutulduğundan 295 min 777 manat artıqdır.

Bu gün Qubadlı Uşaq-Gənclər İdman-Şahmat Məktəbi yalnız respublikamızda deyil, dünyada tanınır. Bu məktəbin yetirməsi olan və hazırda orada çalışan 9 nəfər fəxri adlar qazanmış idmançılardır. Yunan-Roma güləşi üzrə Əməkdar məşqçilər Bahadur Həziyev, Sədi Quliyev, kikboksinq üzrə Rəhim Abbasəliyev, Natiq Qasımov, şahmat və futbol üzrə Bəbəş Quliyev, Cavanşir Əliyev idmanın ön sıralarındadırlar. "Həkəri" futbol komandası müxtəlif illərdə respublika çempionatında I və II yerləri tutub. Fərid Ağayev, Yaqub Zamanov karate-do, Xəyal Cəmilbəyli budo, Ruslan Həsənov konfu-sando üzrə dəfələrlə qalib adını qazanıblar.

Yeniyetmə Təvəkkül Həziyev Qubadlının Sumqayıtda fəaliyyət göstərən Saray kənd orta məktəbinin şagirdidir. 2016-2018-ci illərdə yunan-Roma güləşi üzrə respublikada keçirilən yarışların qalibi olub. Bu günlərdə Polşa Respublikasının Krakov şəhərində keçirilən yeniyetmələr arasında Avropa çempionatında birinci yeri tutaraq qızıl medal qazanıb, üçrəngli bayrağımızı yüksəklikdə dalğalandırıb.

İslam Abbasov da Qubadlı idman məktəbinin yetirməsidir. IV İslam Həmrəyliyi Oyunlarında iştirak edən İslam parlaq qələbə qazanaraq qızıl medal alıb. Dəfələrlə dünya və Avropa çempionu adına layiq görülən İslam bu günlərdə Minskdə keçirilən II Avropa Oyunlarında çıxış edib. Yunan-Roma güləşi üzrə gümüş medal qazanıb.

Qubadlı Tarix-Diyarşünaslıq muzeyi də Sumqayıtda fəaliyyət göstərir. Hazırda işıqlı, geniş otaqlarda yerləşən muzeydə 700-dən artıq eksponat var. Burada rayonun işğal altında olan 93 kəndi barədə geniş məlumat əldə etmək mümkündür. Muzeydə həmçinin Qubadlı şəhidləri, kəndləri, rayonun ictimai həyatında rol oynamış insanlar barədə məlumat var. Əslən Qubadlıdan olan yazıçıların, elm, mədəniyyət xadimlərinin kitabları da burada sərgilənir. Muzeydə xalq qəhrəmanları Qaçaq Nəbi və Həcərə aid əşyalar, onların qəhrəmanlıqlarını əks etdirən rəsm əsərləri qorunub saxlanılır.

Qubadlının təhsil şəbəkəsinin bərpası üçün də əsaslı işlər görülüb. Hazırda rayonda 3 məktəb fəaliyyət göstərir. Saray və Xanlıq orta məktəblərində əsaslı, qalanlarında isə təmir işləri başa çatıb. 2018-2019-cu tədris ilində rayonun məktəblərinin 444 məzunundan 297-i nəfəri tələbə adını qazanıb. 87 nəfər isə kolleclərə qəbul olub. Rayonun Çaytumas və Xocahan məktəbləri ali və orta ixtisas təhsil müəssisələrinə qəbulda 100 faiz nəticə göstərib. Rayon üzrə 671 balla ən yüksək nəticə göstərən Aydan Vüqar qızı İbrahimova Çaytumas kənd tam orta məktəbinin yetirməsidir.

Rayon Mərkəzi Xəstəxanasının poliklinika şöbəsi 3 tibb məntəqəsi ilə birlikdə məcburi köçkünlərə xidmət göstərir. Ötən dövr ərzində 10 min 897 ambulator xəstə qəbul edilib, onlardan 27 nəfər stasionar müalicəyə, 38 nəfər isə sanator-kurort müalicəsinə göndərilib. Beş yüzdən artıq şəkərli diabet xəstələri dərman və tibbi ləvazimatlarla təmin edilib.

Bu gün qubadlılılar məskunlaşdıqları ərazidə kənd təsərrüfatı məhsullarının becərilməsi ilə məşğul olur. Rayona 79,4 hektar əkin sahəsi ayrılıb ki, bunun da 40,6-sı taxıl, 7,3-ü bostan bitkiləri, 25,8 -i yonca, 3 -ü tərəvəz, 2,7 hektarı isə tut bağlarıdır. Kümdarlar tərəfindən 1 ton 120 kiloqram yüksək keyfiyyətli yaş barama tədarük edilib.

Doğma yurdlarının işğalından ötən 26 il qubadlılıların yaddaşına ağrılı-acılı yazıldı. Hazırda onlar rahatlıq tapsalar da, torpaq həsrətini qəlblərindən çıxara bilmirlər. Amma buna da inanırlar ki, Azərbaycan dövlətinin məqsədyönlü siyasəti, ordumuzun döyüş ruhu işğal altında olan torpaqlarımızı azad etmək üçün yetərincədir! Bu, gec-tez olacaq!

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

# Uşaqlar dənizi əbəs yerə sevmirlər...




Dəniz öz yerində, qumlu sahil də uşaqların çox sevdiyi məkandır. Xəzərin iliq sularına baş vurub yorulandan sonra onlar sahildə o yan-bu yana qaçmaqdan, top "qovmaq"dan zövq alırlar. Bunların xüsusilə məktəbyaşlı uşaqların istirahətinin mənalı keçməsi, onların yeni dərs ili başlanana qədər güc toplaması üçün böyük əhəmiyyəti var. Dəniz uşaqların sevincinə, fərəhinə səbəb olmaqla yanaşı, həm də sağlamlıqlarını möhkəmləndirir.

Dənizdə çimib sahildə dincələndən sonra sərin su içməyin isə öz ləzzəti var...

*"Azərbaycan"*

# İsrail dronlarının Azərbaycana gətirilməsi ilə bağlı yayılan məlumatları qətiyyətlə rədd edirik

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bəzi xarici media resurslarında İsrail dronlarının İraqa və İrana hücum edilməsi məqsədilə Azərbaycana gətirilməsi ilə bağlı əsassız məlumatların yayılmasına münasibət bildirib. AZƏRTAC xəbər verir ki, nazirliyin mətbuat katibinin açıqlamasında deyilir: "Təəssüflə qeyd etmək istərdik ki, bəzi xarici media resurslarında İsrail dronlarının İraqa və İrana hücum edilməsi məqsədilə Azərbaycana gətirilməsi ilə bağlı tamamilə əsassız məlumatlar tirajlanmaqda davam edir. Biz bu məlumatları qətiyyətlə rədd edirik. Bu məlumatların heç bir əsası yoxdur və dezinformasiya məqsədi daşıyır".

# Beynəlxalq aləm

## 35 il həbsdə yatmış günahsız amerikalıya kompensasiya veriləcək



ABŞ-ın Nevada ştatının sakini Keti Vuds bir qız tələbəni öldürməkdə nahaq yerə ittiham olunaraq 35 il həbsxanada qaldıqdan sonra bəraət almışdır. "NBC News" telekanalı xəbər verir ki, Vuds kompensasiya kimi 3 milyon dollar alacaq.

68 yaşlı Vudsa kompensasiya xüsusi komissiyanın qərarı ilə ödəniləcək. Qadın bildirmişdir ki, 1979-cu ildə psixiatrik xəstəxanada cinayəti törətməyi zorla boynuna qoyduğu adamların hərəkətlərinə görə də kompensasiya almaq istəyir.

Bu ilin mayında xəbər verilmişdi ki, ABŞ-ın Miçiqan ştatının hakimiyyət orqanları 46 il həbsxanada yatmış günahsız Riçard Fillipsə 1,5 milyon dolar ödəyəcək. Prokurorluq ikinci cəhddən sonra kompensasiyanın ödənməsinə razılıq vermişdi.

## Afinada anarxistlərlə polis arasında toqquşma



Yunanıstanın paytaxtı Afinanın Ekzarxiya rayonu anarxistlərlə polisin xüsusi təyinatlı dəstəsi arasında ciddi toqquşmalara səhnə olmuşdur. Yerli KİV-in xəbərinə görə, 7 nəfər saxlanmışdır.

Bir qrup anarxist polis əməkdaşlarını daşa basmış, onlara içərisində yandırıcı maddə olan butulkalar atmışdır. Polis gözyaşardıcı qazdan istifadə etmişdir.

Anarxist təşkilatlarının portalı iddia edir ki, polis afrikalı miqrantların zəbt etdiyi binada gözyaşardıcı qaz tətbiq etmişdir. Uşaqlı ailələr binadan qaçmağa məcbur olmuşdur. Bir nəfər yaralanmış və xəstəxanaya yerləşdirilmişdir.

## Tramp kosmosu növbəti hərbi əməliyyatlar sahəsi elan etdi



ABŞ Prezidenti Donald Tramp ABŞ Kosmik Komandanlığının fəaliyyətə başladığını elan etmiş və kosmosu növbəti hərbi əməliyyatlar sahəsi adlandırmışdır. Bu barədə "RIA Novosti" agentliyi xəbər verir.

ABŞ lideri bildirmişdir ki, Kosmik Komandanlıq ABŞ-ın kosmosda - növbəti hərbi əməliyyatlar sahəsində maraqlarını müdafiə edəcək. O əlavə etmişdir ki, tezliklə ABŞ-ın kosmik qoşunları yaradılacaq. Kosmik Komandanlığa general Con Reymond başçılıq edəcək, onun tabeliyində 87 birləşmə olacaq. Komandanlıq raket buraxılışlarından əvvəlcədən xəbərdarlıq edəcək, süni peyklərin fəaliyyətini əlaqələndirəcək, kosmik əməliyyatlara nəzarəti və onların dəstəklənməsini həyata keçirəcək.

Ötən ilin iyununda Tramp Pentaqona yeni qoşun növünü - hərbi kosmik qüvvələri formalaşdırmağa başlamağı tapşırmışdı. O qeyd etmişdi ki, yeni qoşunlar ABŞ Silahlı Qüvvələrinin ayrıca, altıncı növü olacaq. Tramp vurğulamışdı ki, kosmosda Amerikanın taleyi milli təhlükəsizlik məsələsidir.

## Yəmən Prezidenti BƏƏ-ni ölkəsini parçalamaqda ittiham edir



Yəmən Prezidenti Əbd Rəbbu Mənsur Hadi Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) ordusunun ölkəsində hərəkətlərini qətiyyətlə pisləmiş, hökumət qoşunlarının mövqelərinə havadan zərbələri Yəməni bölmək planının tərkib hissəsi kimi qiymətləndirmişdir.

Yəmən liderinin dediyinə görə, BƏƏ Cənub Keçid Şurasından olan separatçıları açıq-aşkar dəstəkləyir. Prezident diqqəti BƏƏ aviasiyasının Yəmənin müvəqqəti paytaxtında - Ədəndə və Əbyən əyalətinin inzibati mərkəzində - Zəncibar şəhərində hökumət qoşunlarının mövqelərini vurmasına cəlb etmişdir. O qeyd etmişdir ki, BƏƏ ordusunun köməyi ilə separatçılar hər iki şəhəri zəbt etmişlər. Hadi əlavə etmişdir ki, BƏƏ-nin hərbi təyyarələri Ədəndə mülki obyektləri də vurmuş, nəticədə onlarla adam həlak olmuş və yaralanmışdır. Prezident qeyd etmişdir ki, separatçılar qanlı cinayətlər törətməkdə davam edir, o cümlədən Əbyən şəhərinin xəstəxanalarında yaralı hərbi qulluqçuları güllələyirlər.

# "Qarabağ"ın rəqibləri məlum oldu

Dünən UEFA Avropa Liqasında qrup mərhələsinin püşkü atılıb. Püşkatmanın nəticəsinə əsasən, 48 klub 12 qrupa bölünüb. Azərbaycan çempionu Ağdamın "Qarabağ" klubu avrokuboklarda 6-cı, Avropa Liqasında 5-ci dəfə əsas mərhələdə çıxış edəcək.

Püşkatmanın nəticəsinə əsasən ağdamlılar A qrupunda İspaniyanın "Sevilya", Kiprin APOEL və Lüksemburqun "Düdelanj" komandaları ilə mübarizə aparacaq.

Qeyd edək ki, sentyabrın 19-da başlayacaq qrup mərhələsinin oyunları dekabrın 12-də yekunlaşacaq.



Qruplarda aşağıdakı komandalar yer alıblar:

**A qrupu:** "Sevilya" (İspaniya), APOEL (Kipr) **"Qarabağ" (Azərbaycan),** "Düdelanj" (Lüksemburq);

**B qrupu:** "Dinamo" (Kiyev, Ukrayna), "Kopenhagen" (Danimarka), "Malmö" (İsveç), "Luqano" (İsveçrə);

**C qrupu:** "Bazel" (İsveçrə), "Krasnodar" (Rusiya), "Xetafe" (İspaniya), "Trabzonspor" (Türkiyə);

**D qrupu:** "Sportinq" (Portuqaliya), PSV (Hollandiya), "Rusenborq" (Norveç), LASK (Avstriya);

**E qrupu:** "Latsio" (İtaliya), "Seltik" (Şotlandiya), "Renn" (Fransa), ÇFR (Rumıniya);

**F qrupu:** "Arsenal" (İngiltərə), "Ayntraxt" (Almaniya), "Standard" (Belçika), "Vitoriya" (Portuqaliya);

**G qrupu:** "Portu" (Portuqaliya), "Yanq Boyz" (İsveçrə), "Feyenoord" (Hollandiya), "Reyncers" (Şotlandiya);

**H qrupu:** MOİK (Rusiya), "Ludoqorets" (Bolqarıstan), "Espanyol" (İspaniya), "Ferensvaroş" (Macarıstan);

**I qrupu:** "Volfsburq" (Almaniya), "Gent" (Belçika), "Sent-Etyenn" (Fransa), "Aleksandriya" (Ukrayna);

**J qrupu:** "Roma" (İtaliya), "Borussiya" (Mönhenqladbax, Almaniya), "Başakşəhər" (Türkiyə), "Volfsberq" (Avstriya);

**K qrupu:** "Beşiktaş" (Türkiyə), "Braqa" (Portuqaliya), "Vulverhempton" (İngiltərə), "Slovan" (Slovakiya);

**L qrupu:** "Mançester Yunayted" (İngiltərə), "Astana" (Qazaxıstan), "Partizan" (Serbiya), "Alkmar" (Hollandiya).

## BİLDİRİŞ

"Azərlotereya" Açıq Səhmdar Cəmiyyəti tərəfindən 24.07.2019-cu il tarixdə keçirilmiş "Kompüter və digər avadanlıqlarının satın alınması" üzrə kotirovka sorğusunun qalibi "Premier" MMC ilə 7398.60 manat məbləğində satınalma müqaviləsi bağlanılmışdır.

*Tender komissiyası*

## Bakı Şəhər İcra Hakimiyyəti Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri Uşaq Evləri İdarəsi xidmətlərin satın alınması məqsədilə *açıq tender elan edir*

**1. LOT-I - İstehsalatda istifadə olunmayan qeyri-maddi aktivlər**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları yüksək kadr potensialına, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər LOT-I üzrə 800 manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri İstiqlaliyyət küçəsi, 18 ünvanından ala bilərlər. Əlaqələndirici şəxs; Məmmədova Raya Yusif qızı, tel:492-53-06.

**Dövlət Xəzinədarlıq Agentliyi**

**Kodu: 210005**
**VÖEN: 1401555071**
**M/H: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**Məktəbəqədər Təhsil Müəssisələri İdarəsi**
**İBAN H AZ27CTRE00000000000002518337**
**VÖEN: 1701374451**
**Büdcə səviyyəsinin kodu: Fond 7Y**
**Büdcə təsnifatının kodu: 142340**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflər açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır) ;*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında büdcə, bank, sosial sığorta və vergi öhdəliklərinin olmaması haqqında arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının son bir il ərzində gördüyü işlər barədə məlumat.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru "Dövlət Satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **19 sentyabr 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş, ikiqat zərfdə **27 sentyabr 2019-cu il saat 18:00-a** qədər Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsinə (ünvan: İstiqlaliyyət küç., 18) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklif zərfləri **30 sentyabr 2019-cu il saat 11:00-da** yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

*Tender komissiyası*

## "Bakı Metropoliteni" QSC "Cəfər Cabbarlı" stansiyasında su çəkmə qovşaqlarının santexnikası işlərinin satın alınması üzrə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/-dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**LOT-1."Bakı Metropoliteni" QSC-nin" "Cəfər Cabbarlı" stansiyasında su çəkmə qovşaqlarının santexnikası işlərinin satın alınması**

**İştirak haqqı- 150 manat**
**Hesabın adı: BAKI METROPOLITENI QSC**
**Hesab nömrəsi (IBAN) :**
**AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı : AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət Satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **25 sentyabr 2019-cu il saat 17:00-a qədər** və tender təklifi ilə bank təminatı sənədlərini **03 oktyabr 2019-cu il saat 16:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **04 oktyabr 2019-cu il saat 16:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.**

*Tender komissiyası*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

## Atəşkəs rejimi 21 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistanın İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Yarımca, Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qobu Dilağarda, Aşağı Seyidəhmədli, Qorqan kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov və komitənin üzvləri YAP İdarə Heyətinin üzvü, akademik Abel Məhərrəmova əzizi

**AZƏR SADIQOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin deputatı Ağalar Vəliyev akademik Abel Məhərrəmova əzizi

**AZƏR SADIQOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9004
Sifariş 2813
Qiyməti 40 qəpik